# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

08 yanvar 2026-cı il, cümə axşamı
№ 003 (7070)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# İdarəetmənin yeni dövrü



## İlham Əliyev: Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də bütövlükdə ölkəyə tətbiq oluna bilər

Bax səh. 2

## 2025-ci il sülh prosesində tarixi il oldu

Bax səh. 5

## Yüksək inkişaf göstəriciləri

Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində ölkəmizdə əldə edilmiş sosial-iqtisadi, uğurlardan danışarkən yürüdülən düzgün iqtisadi siyasətin əhəmiyyətininə xüsusi diqqət çəkdi. Bəyan olunduğu kimi, Azərbaycan iqtisadi cəhətdən tamamilə müstəqil dövlətdir və hər hansı bir dəstəkdən, istənilən kreditdən və ya nədənsə asılı olmadığına görə, dayanıqlı inkişaf möhkəmlənir. Ölkəmizdə təmin edilmiş makroiqtisadi sabitlik və maliyyə dayanıqlılığı təkcə son bir ildə strateji yığım rezervlərinin təxminən 10 milyrad dollar artmasına səbəb olub, valyuta ehtiyatlarımız 84 milyard  dollara yüksəlib.

Strateji ehtiyatların artması ölkəmizin makroiqtisadi sabitliyinin möhkəmlənməsində...

Bax səh. 3



## Bakı-Vaşinqton əlaqələri: yeni məzmun, gələcəyə hesablanmış prioritetlər

Bax səh. 4

## Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur...

Müasir beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizlik anlayışları getdikcə daha mürəkkəb xarakter alır. Regional münaqişələrin qlobal təsirlərə malik olduğu, geosiyasi maraqların humanitar dəyərlərlə toqquşduğu indiki mərhələdə dövlətlərin məsuliyyətli mövqe nümayiş etdirməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan bu baxımdan uzun illərdir beynəlxalq hüquqa, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə hörmət...

Bax səh. 6

## Azərbaycan-Çin əlaqələri 2025-ci ildə tarixi yüksək səviyyəyə qalxıb

Bax səh. 6



## Luizianadan Qrenlandiyaya - Vaşinqton yenidən “əilini cibinə salır”...

Bax səh. 7

# Prezident İlham Əliyevin müsahibəsi dünya mediasında geniş işıqlandırılıb

*N.BAYRAMLI*

Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibə dünya mediasında da geniş işıqlandırılıb. Belə ki, Çinin milli xəbər agentliyi "Sinxua"nın Azərbaycan Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan-Çin münasibətlərinə dair fikirləri haqqında xəbərləri Çin mediasında geniş yayılıb.

"Azərbaycan Prezidenti Çinlə hərtərəfli strateji tərəfdaşlığı yüksək qiymətləndirir" adlı Çin və ingilis dilində hazırlanan xəbərdə dövlətimizin başçısının iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulmasını böyük uğur kimi dəyərləndirdiyi qeyd olunub. Vurğulanıb ki, Azərbaycan Prezidenti hərtərəfli strateji tərəfdaşlığın iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına böyük təkan verdiyini, biznes və dövlət strukturlarına əlaqələri fəallaşdırmaq üzrə ciddi impuls verdiyini deyib.

Qeyd olunub ki, Prezident İlham Əliyev müsahibə zamanı Çin şirkətlərinin Azərbaycanda günəş və külək elektrik stansiyalarının inşasında fəal iştirakına toxunub, Çinli tərəfdaşlarla Azərbaycanda elektrik avtobuslarının istehsalına başlanıldığını deyib. "Sinxua" Prezident İlham Əliyevin "Biz təkcə yaşıl energetikanı deyil, həm də yaşıl nəqliyyatı inkişaf etdirmək qərarına gəldikdə, gündəmdə strateji tərəfdaş seçmək məsələsi dayandı və Çin şirkətlərini seçdik" sitatını da xəbərə daxil edib.

Nüfuzlu "Reuters" agentliyinin, ABŞ-ın "US News", "The Straitstimes", "Econotimes" qəzetlərinin, "Global Banking and Finance" internet resursunun, habelə beynəlxalq analitik portal olan "Al-Monotor"un dərc etdiyi "Azərbaycan Qəzzaya sülhməramlı kontingent göndərməyəcək" sərlövhəli xəbərlərdə qeyd olunur ki, Prezident İlham Əliyev Azərbaycan hərbçilərinin ölkənin hüdudlarından kənarda heç bir hərbi əməliyyatlarda iştirak etmədiyini və bunun gələcəkdə də nəzərdə tutulmadığını bildirib. Materialda bununla bağlı yanlış məlumatları təkzib edən dövlət başçısının sözləri sitat gətirilir: "Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur".

Türkiyənin aparıcı media orqanları da Azərbaycan Prezidentinin yerli televiziya kanallarına verdiyi müsahibəni geniş şəkildə işıqlandırıb. Qardaş ölkənin televiziya kanalları, xəbər agentlikləri və qəzetləri Azərbaycan liderinin Türk Dövlətləri Təşkilatı çərçivəsində müdafiə əməkdaşlığının vacibliyi ilə bağlı fikirlərinə, eləcə də Prezident İlham Əliyevin Türkiyə ilə müttəfiqlik əlaqələrinin dərinləşdirilməsi ilə bağlı açıqlamalarına diqqət yetiriblər.

Azərbaycan Prezidentinin türk dövlətləri ilə münasibətlərin inkişafı ilə bağlı mövqeyi də diqqət mərkəzində olub. Xəbərlərdə və reportajlarda dövlətimizin başçısının qlobal proseslər, Zəngəzur dəhlizinin işə salınması və Ermənistanla münasibətlərin normallaşdırılması da daxil olmaqla müxtəlif cari məsələlərə dair fikirləri də yer alıb.

Gürcüstan mediası da Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəni geniş şəkildə işıqlandırıb. Nüfuzlu "resonancdaily.com", "bpn.ge", "interpress.ge", "qafqazturk.com", "aktual.ge", "24news.ge", "realnews.ge" informasiya portalları, eləcə də "1tv.ge" televiziyası və onun rəsmi internet saytı mövzu ilə bağlı silsilə xəbərlər yayımlayıb. Xəbərlərdə və reportajlarda dövlətimizin başçısının Qəzzaya sülhməramlı qüvvələrin göndərilməyəcəyi, Zəngəzur dəhlizinin işə salınması, Çindən və Orta Asiyadan yüklərin bu dəhliz vasitəsilə daşınması, eləcə də qlobal proseslər və Ermənistanla münasibətlərin normallaşdırılması da daxil olmaqla müxtəlif cari məsələlərə dair fikirləri də yer alıb.

Yaxın Şərqin ortaq portalı olan "Salem", həmçinin "Europa Press" qəzetinin materiallarında isə qeyd olunur ki, Prezident İlham Əliyev Bakıda Azərbaycan hökumətinin maliyyə dəstəyi ilə Fələstinin səfirliyinin də fəaliyyət göstərdiyini qeyd etməklə yanaşı, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özlərinin həll etməli olduğunu bildirib. Prezident qeyd edib: "Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın razılıq verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi. Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz".

Nüfuzlu "əş-Şarq əl-Avsət", "əl-Quds əl-Arabi", "əl-Dustur", "əl-Şuruq", "samanyus", eləcə də Fələstinin informasiya portalları, bir sıra televiziya kanalları mövzu ilə bağlı silsilə xəbərlər yayımlayıb. Ərəb mediasında yayılan xəbərlərdə və reportajlarda dövlətimizin başçısının Azərbaycanın Qəzzada sülhməramlı qüvvələrin tərkibində iştirakla bağlı mövqeyi, eləcə də qlobal proseslər və ABŞ-la münasibətlər əsas diqqət mərkəzində olub.

İspandilli "Demcrata", "Notimersa", "Portaltela", "Teleprensa", "İtongadol", "İnfobae" agentlik və portallarında dərc olunan xəbərlərdə də Azərbaycanın dövlət başçısının Qəzzada hər hansı əməliyyatlarda iştirak etməyin qeyri-mümkün olması ilə bağlı fikirləri yer alıb. Qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycan sülhməramlılarının əvvəllər Kosovo və Əfqanıstanda sülhməramlı missiyalar zamanı da heç bir hərbi əməliyyatda iştirak etmədiyini diqqətə çatdırıb.

Beynəlxalq iqtisadiyyat portalı "İnvesting.com", İsrailin "The Jerusalem Post", "Israelhayom", "Time of Israel" qəzetləri, rus dilində nəşr olunan "Vesti İzrail" portalı, Bolqarıstanın "Dnevnik" nəşri, Yunanıstanın "Skai" internet resursu da Azərbaycan Prezidentinin Yaxın Şərqdə münaqişələrə dair fikirlərini dərc edib.

Prezident İlham Əliyevin müsahibəsindəki əsas məqamlara Pakistanın "Ummat", "Dawn", Hindistanın "Shafaqna India", İranın "Mehr" agentliyi, "Tahlil İran" və "Vista" portallarının dərc etdikləri materiallarda da geniş yer verilib. Qeyd olunub ki, Azərbaycanın dövlət başçısı öz ölkəsinin Fələstinlə bağlı İslam Əməkdaşlıq Təşkilatının qərarlarına qoşulduğunu bildirib, amma Qəzzada, ümumiyyətlə, hər hansı xarici məkanda heç bir əməliyyatlarda iştirakın nəzərdə tutulmadığını bəyan edib.

Moldovanın aparıcı "Noi.md" xəbər portalında da Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədən əsas sitatları əks etdirən məqalə dərc edilib. Rumın və rus dillərində dərc olunan məqalədə Prezident İlham Əliyevin Azərbaycanın enerji təchizatında artdığı rol haqqında söylədiyi fikirlər yer alıb. Qeyd olunub ki, Azərbaycan qaz ixracını həm həcm, həm də coğrafi imkan baxımından artırır. Azərbaycan bu gün və uzun illər Avropa istehlakçıları üçün əvəzolunmaz tərəfdaşdır və enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolu daha da artacaq.

Məqalədə dövlət başçımıza istinadla daha sonra vurğulanır ki, Azərbaycan hazırda 14 ölkəyə qaz tədarük edir, onlardan 11-i müntəzəmdir. Ümumilikdə, Azərbaycandan boru kəməri qazının coğrafi ərazisi 14 ölkədir və bu il daha iki Avropa ölkəsi də əlavə olunacaq. Ona görə də ümumilikdə onların sayı 16 olacaq və bu, boru kəməri ilə qaz tədarükü baxımından ən böyük rəqəmdir. Dünyanın heç bir ölkəsi Azərbaycan qədər ölkəyə boru kəməri qazı vermir.
















# Dini qurumlara maliyyə yardımı ayrılıb

Prezident İlham Əliyev Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,5 milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 400 min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 400 min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 400 min manat, Sefarad yəhudilərinin Bakı dini icmasına 400 min manat, Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 400 min manat və Alban-Udi xristian dini icmasına 400 min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 400 min manat ayrılıb.

# İdarəetmənin yeni dövrü

## Prezident İlham Əliyev: Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də bütövlükdə ölkəyə tətbiq oluna bilər



Postmüharibə dövründə Azərbaycanda hər cəhətdən müsbət ab-hava hökm sürür. Əsas ümummilli ideyamızın - ərazi bütövlüyümüzün və suverenliyimizin tam təmin edilməsindən sonra milli güc inkişafa, quruculuğa yönəldilib. Ölkə daxilində güclü həmrəylik ovqatı var, respublikamız dünya arenasında böyük uğurlara imza atır. Gələcək planlar da böyükdür. Ölkəmiz yeni strateji mərhələyə daxil olub və bu mərhələ üçün mühüm prioritetlər müəyyənləşdirilib. Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində bildirdiyi kimi, çoxlu planlar var və onlar həyata keçiriləcək.

Təbii ki, qarşıya qoyulan böyük hədəflərə çatmaq üçün bir sıra şərtlər təmin olunmalıdır. Burada idarəetmə çərçivələrinin optimallığı, həmçinin kadrların peşəkarlığı və məsuliyyəti çox mühüm şərtlərdir. Prezident İlham Əliyev bəhs olunan müsahibəsində bütün bu kimi məsələlərlə bağlı fikirlərini diqqətə çatdırıb.

**Çevik idaretmə üçün Qarabağ və Şərqi Zəngəzur modeli**

Müstəqillik illərində həyatın bütün sahələrində böyük uğurlar qazanan Azərbaycanın siyasəti konseptual, ardıcıl və çevik səciyyə daşıyır. Əgər son 22 ilin təcrübəsinə geniş nəzər salsaq, görərik ki, ölkəmizdə heç bir qərar təsadüfən qəbul olunmayıb. Prezident İlham Əliyevin dəfələrlə bildirdiyi kimi atılan hər bir addımın arxasında çox böyük təhlil və böyük məqsədlər dayanır. İndiki qlobal çətinliklər şəraitində Azərbaycanın öz inkişafının ardıcıllığını təmin etməsi, bütün dünyada sabitlik adası kimi fərqlənməsi də məhz dövlət başçısının ölkənin potensialını, inkişaf səviyyəsini, cəmiyyətin sosial sifarişlərini və meydana çıxan çağırışları məharətlə uzlaşdıraraq prioritetləri önə çəkməsi və adekvat siyasət həyata keçirməsi ilə şərtlənir. Bunun təsdiqi olaraq vurğulayaq ki, son illərdə respublikamızın mənzərəsi dövlət başçısının qətiyyəti və möhkəm siyasi iradəsi ilə reallaşdırılan islahatlarla səciyyələnir.

O cümlədən idarəetmə kimi həssas sahə də islahatlardan kənarda qalmamalıdır. İnkişafın ardıcıllığının təmin olunması və miqyasının daha da genişləndirilməsi üçün idarəetmə çevik olmalı və yeni dövrün tələblərinə cavab verməlidir. Prezident İlham Əliyev idarəetmə islahatlarının anonsunu edərək bildirib ki, Qarabağ və Şərqi Zəngəzurda artıq yeni üsuli-idarə nəzərdə tutulub və tətbiq edilir.

Dövlət başçısının idarəetmə strukturunun yenilənməsinin anonsunu etməsi təsadüfi deyil. Dövlət idarəçiliyinə heç bir halda doqma kimi yanaşmaq olmaz. Zaman ötür, ölkə inkişaf edir, yeni reallıqlar yaranır. Azərbaycanın yeni inkişaf mərhələsinə yüksəlməsi, müasir dövrün trendləri qarşıya həmçinin idarəetmə strukturunun təkmilləşdirilməsi tələbini qoyur.

Eyni zamanda, idarəetmənin yenilənməsi cəmiyyətin sosial sifarişidir. Açıq deyək, müxtəlif icra strukturlarının fəaliyyəti heç də qənaətbəxş deyil və narazılıqlara yol aşır. Bir sıra hallarda yerlərdə süründürməçilik, rüşvətxorluq, məmurların səlahiyyət hədlərini aşmaları, digər belə neqativ hallar müşahidə edilir. Bu gün paytaxtda və regionlarda ayrı-ayrı icra qurumlarında vətəndaş qəbulları formal xarakter daşıyır. Bütün bunlar isə ölkədə vətəndaş məmnunluğuna əsaslanan siyasətlə daban-dabana ziddir və ölkəmizin müasir mənzərəsinə uyğun gəlmir. Prezident İlham Əliyev dövlət idarəçiliyinə o fəlsəfədən yanaşır ki, XXI əsrdə köhnə baqajla nailiyyət əldə etmək mümkün deyil. İslahatların əsas məqsədi ondan ibarətdir ki, ölkəmizdə mövcud olan ab-hava daha da sağlamlaşdırılsın, xoşagəlməz hallara yol verilməsin.

Bildirildiyi kimi, respublikamızda idarəetmə çərçivələrinin yenilənməsi istiqamətində ilk addımlar atılıb. Belə ki, Prezident İlham Əliyev 19 yanvar 2021-ci ildə "İşğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri haqqında" fərman imzalayıb. Sənəddə də vurğulandığı kimi, Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliklərinə Azərbaycan Respublikası Prezidenti tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən və birbaşa Azərbaycan Respublikasının Prezidentinə tabe olan Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndələri rəhbərlik edirlər. Respublikamızda Prezidentin ilk xüsusi nümayəndəsi Vətən müharibəsində işğaldan azad edilən Şuşa rayonuna təyin edilib. Şuşa rayonundan sonra xüsusi nümayəndəlik institutu Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında, həmçinin Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikasında tətbiq olunub.

Bəs yeni idarəetmə modelindən hansı gözləntilər var? Yeni idarəetmə modeli həm funksionallıq, həm də operativlik və şəffaflıq baxımından elə bir mexanizm formalaşdırılmasına hesablanıb ki, Azərbaycan vətəndaşlarının dövlət hakimiyyəti orqanlarına, onun yerli strukturlarına, parlamentə etimadı, inamı artsın. İlk növbədə inklüzivlik və şəffaflıq təmin olunmalıdır. Dövlət vətəndaş üçündür və icra qurumları da bu inamı öz fəaliyyətləri ilə doğrultmalıdırlar. Prezident İlham Əliyev bəhs olunan idarəetmə modelini təqdir etdiyini bildirərək vurğulayıb: "Qarabağda və Şərqi Zəngəzurda tətbiq olunan idarəetmə modeli bir gün ölkənin müxtəlif yerlərinə, bəlkə də bütövlükdə ölkəyə tətbiq oluna bilər. Çünki bu da operativ, çevik və daha az məmurun iştirakını tələb edən üsuli-idarə metodudur. Hər halda azad edilmiş ərazilərdə özünü doğruldub, yəni gələcək göstərər".

**Əsas məsələ kadrlar məsələsidir**

Özlüyündə idarəetmə strukturu funksional və optimal ola bilər. Lakin bu, hər şeyi həll etmir. Bu və ya digər sahədə uğur qazanılması üçün məmurların üzərinə böyük məsuliyyət düşdüyünə diqqət çəkən Prezident İlham Əliyev xüsusi olaraq vurğulayıb ki, əsas məsələ, kadr məsələsidir. Bunun təsdiqi üçün iki nümunəyə diqqət çəkmək yerinə düşər. Biz yuxarıda Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında tətbiq edilən idarəetmə strukturunun səmərəliliyindən bəhs etdik. Həqiqətən də, postmüharibə dövründə işğaldan azad edilmiş ərazilərdə görülən böyükmiqyaslı işlər qürur doğurur. Nəzərdə tutulan işlər, layihələr dəqiqliklə və yüksək keyfiyyətlə icra edilir. Burada xüsusi nümayəndəliklərin rolu böyükdür. Eyni model Naxçıvanda da tətbiq olunur. Ancaq burada müşahidə edilən çatışmazlıqlar ciddi narahatlıq doğururdu. Ora təyin edilən kadr dövlət başçısının yüksək etimadını doğrultmayıb və buna görə də vəzifəsindən kənarlaşdırılıb. Oxşar hadisə Bakının Nəsimi rayonunda da yaşanıb. Noyabr ayında Prezident İlham Əliyev bu rayona və digər bir neçə rayona yeni təyin olunan icra başçılarını qəbul edərək onlara öz tapşırıqlarını verib. Bu tapşırıqlar ənənəvidir - icra başçıları insanlara diqqət göstərməli, iş adamlarını incitməməli, rüşvətxorluğa, korrupsiyaya qarşı mübarizə aparmalı, sosial ədalət prinsipini gözləməlidirlər. Lakin Nəsimi rayonunun yeni təyin olunan icra başçısı işini bu tələblərə uyğun qurmayıb və təbii ki, dövlət başçısının imzaladığı müvafiq sərəncamla tutduğu vəzifədən azad edilib. "Mən artıq 22 ildir ki, bu vəzifədəyəm və bu illər ərzində bir çox kadrları vəzifəyə təyin etmişəm, etimad göstərmişəm. Hər dəfə yeni təyin edilən icra başçısı ilə mənim ya görüşlərim, ya telefonla söhbətim olur. Onların bəziləri televiziyaya, mətbuata verilir, bəziləri verilmir və tövsiyələrim də təxminən çox da dəyişmir. Məyus edən də odur ki, əfsuslar olsun, gənc kadrlar arasında da pozuntulara yol verənlər var. Yəni burada gənc nəsil, yaşlı nəsil söhbəti getmir. İnsanların keyfiyyətindən söhbət gedir, ailədə, məktəbdə, cəmiyyətdə aldığı tərbiyədən söhbət gedir. Ona görə etimad göstərilir, onu doğruldan həmişə dəstəklənir. Mən həmişə kadrlara ədalətli olmuşam. Amma etimadı doğrultmayan, əyri yola gedənlər, əlbəttə ki, ya cinayət məsuliyyətinə cəlb edilir, - belə hallar kifayət qədər çoxdur, - ya da ki, inzibati qaydada cəzalandırılır. Nə deyə bilərəm, mən davam edəcəyəm, bu proses hamar deyil. Struktur islahatlarının aparılması təbii ki, vacibdir. Amma saf, təmiz kadrların yetişdirilməsi ondan daha vacib məsələdir və mənim təcrübəm onu göstərir ki, bu, daha vacib məsələdir, nəinki struktur dəyişiklikləri", - deyə Prezident İlham Əliyev prinsipial mövqeyini bir daha diqqətə çatdırıb.

Ölkəmizdə idarəetmə və kadr islahatlarının paralel aparılması hədəflənir. Yeni idarəetmə modeli Azərbaycanın yeni baxışlarını və müasir simasını əks etdirəcək. İdarəetmənin yeni çərçivələri kadrlara öz potensiallarını göstərmələrinə, təşəbbüslərini reallaşdırmalarına imkanlar yaradacaq. Eyni zamanda, kadrların fəaliyyətinə verilən tələblər də kifayət qədər yüksəkdir və bundan sonra da belə olacaq.

*Mübariz FEYİZLİ*

**2026-cı ildə qarşıya qoyulan yeni hədəflərə çatmağa möhkəm zəmin yaradır**

# Yüksək inkişaf göstəriciləri






Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində ölkəmizdə əldə edilmiş sosial-iqtisadi, uğurlardan danışarkən yürüdülən düzgün iqtisadi siyasətin əhəmiyyətininə xüsusi diqqət çəkdi. Bəyan olunduğu kimi, Azərbaycan iqtisadi cəhətdən tamamilə müstəqil dövlətdir və hər hansı bir dəstəkdən, istənilən kreditdən və ya nədənsə asılı olmadığına görə, dayanıqlı inkişaf möhkəmlənir. Ölkəmizdə təmin edilmiş makroiqtisadi sabitlik və maliyyə dayanıqlılığı təkcə son bir ildə strateji yığım rezervlərinin təxminən 10 milyrad dollar artmasına səbəb olub, valyuta ehtiyatlarımız 84 milyard  dollara yüksəlib.

Strateji ehtiyatların artması ölkəmizin makroiqtisadi sabitliyinin möhkəmlənməsində, dayanıqlı iqtisadi dəyər zəncirinin formalaşmasında xüsusi əhəmiyyət kəsb edir. Hazırda Azərbaycanın xalis maliyyə aktivlərinin həcmi ümumi daxili məhsulu (ÜDM) ötməklə güclü maliyyə təhlükəsizliyi yastığı təminatı yaradır. Müqayisə üçün qeyd edək ki, inkişaf etmiş ölkələrin böyük əksəriyyətində strateji valyuta ehtiyatlarının həcmi ÜDM-nin 30-40 faizini təşkil edir.

**Valyuta ehtiyataları xarici borcu 9 dəfə üstələyir**

Son illərdə həm Dövlət Neft Fondunun, həm də Azərbaycan Mərkəzi Bankının ehtiyatlarında əhəmiyyətli artımlar müşahidə edilir ki, bu da ikiqütblü rezerv portfelinin böyüməsini təşviq edir. Ehtiyatların böyüməsində qiymət və hasilat faktorları təsiredici funksiya daşısa da, çevik maliyyə siyasəti, ələlxüsus da Neft Fondunun qlobal investor kimi aparıcı oyunçuya çevrilməsi və rezervlərin uğurlu idarəedilməsindən qazandığı daxilolmaların rolu da xüsusi rol oynamaqdadır.

Həyata keçirilən güclü maliyyə siyasəti və iqtisadi inkişaf dinamikası, eyni zamanda, ixrac potensialının yüksək artımı respublikamızın maliyyə sabitliyinin möhkəmlənməsinə dərin zəmin yaradıb və valyuta gəlirlərinin çoxalmasını təmin etməkdədir.

İqtisadi təhlükəsizlik üçün zəmanətverici rol oynayan strateji valyuta ehtiyatları Azərbaycanda riskləri tam neytrallaşdırır. Ümumilikdə, strateji valyuta ehtiyatlarının yüksək templə artımı ölkə iqtisadiyyatının mümkün xarici böhran təsirlərinə qarşı həssaslığını azaldan və güclü makroiqtisadi bufer formalaşdıran amildir. Hazırkı mürəkkəb geoiqtisadi risklər və qlobal təhdidlərin artdığı dövrdə, habelə enerji bazarındakı dalğalanmalar fonunda Azərbaycanın mövcud strateji valyuta ehtiyatlarının həcmi möhkəm iqtisadi sütuna çevrilir.

Güclü valyuta ehtiyatları hər bir ölkənin inkişafını təmin etməklə bərabər, həm də onun xarici borcunun müdafəçisi kimi çıxış edir. Hazırda Azərbaycanın xarici borcu ÜDM-in 6,3-6,4 faizini təşkil edir və ölkəmiz dünyada ən aşağı borca malik dövlətlər sırasında ilk yerlərdə dayanır. Azərbaycanın hazırkı valyuta ehtiyataları xarici borcu ən azı 16 dəfə üstələməklə sabitlik və dayanıqlığı daha da möhkəmləndirir.




**Ölkəmizin beynəlxalq reytinqi yüksəlib**

Azərbaycanın əlverişli maliyyə vəziyyəti nüfuzlu beynəlxalq iqtisadi institutların reytinq hesabatlarında da müsbət dəyərləndirilir. Cənab Prezidentin də vurğuladığı kimi iki aparıcı reytinq şirkəti - “Moody’s” və “Fitch” ölkəmizin reytinq investisiya səviyyəsini yeniləyərək proqnozu sabitdən müsbətə doğru yeniləyib. Belə ki, “Standart & Poor’s” və “Moods“ reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq “BB+” səviyyəsinə qaldırıb. Eyni zamanda “Fitch Ratings” agentliyi Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini “pozitiv” proqnozu ilə “BBB” səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investitorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik “Top-7” qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün əlverişli münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Buna baxmayaraq, ölkəmizin böyük ehtiyatları, aşağı xarici borcu, özünü təmin edən iqtisadiyyatı və digər amillər daha yüksək reytinqə malik olmağa imkan verir.

**Xarici investisiya qoyuluşları artıb**

Yüksək kredit reytinqi respublikamızın potensial investor və dünyada sərmayəçi ölkə kimi imicinin möhkəmlənməsində mühüm amil kimi çıxış edir, xarici sərmayəçilərin beynəlxalq inamını artırır. Bunun nəticəsidir ki, Azərbaycan iqtisadiyyatına daxili və xarici kapital qoyuluşlarında artım dinamikası davam etməkdədir. 2025-ci ilin yanvar-noyabr aylarında əsas kapitala 16 milyard 658,9 milyon manat məbləğində investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi isə 8,3 faiz artaraq ümumi sərmayə axıcılığını təmin edib. Bu dövr ərzində istifadə olunmuş investisiyanın 8,4 milyard manatı və ya 50,6 faizi məhsul istehsalı  sahələrinə, 5,6 milyard manatı (33,7 faiz) xidmət sahələrinə, 2,6 milyard manatı (15,7 faiz) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 12,9 milyard manatını və ya 78 faizini daxili investisiyalar təşkil edib. Həmin sərmayələrin 76,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

Azərbaycana yatırılan birbaşa xarici investisiyaların həcmində də əhəmiyyətli artım qeydə alınıb. Cari ilin yanvar-sentyabr aylarında Azərbaycana xarici rezidentlər tərəfindən 4 milyard 736 milyon dollar birbaşa investisiya yatırılıb. Sərmayə potfelində birinci yeri 1 milyard 243 milyon dollarla Böyük Britaniya, növbəti yerləri 632 milyon dollarla Türkiyə, 543 milyon dollarla Cənubi Kipr, 384 milyon dollarla İsveçrə və 272 milyon dollarla İran tutub. Eləcə də xarici yatırım edən dövlətlər sırasında BƏƏ, Rusiya, ABŞ, Yaponiya, Macarıstan, Fransa və Hindistan sərmayədarlarının payı artıb.

Qeyd edilən dövrdə Azərbaycanın özü də sərmayədar ölkə kimi xarici ölkələrin iqtisadiyyatına 2 milyard 38 milyon dollar birbaşa investisiya yatırıb. Xaricə yönəldilən investisiyalarda əsas istiqamət İsrail olub və bu ölkəyə 542,6 milyon dollar həcmində sərmayə yatırılıb ki, bu da əsasən “Tamar” qaz yatağı layihəsi ilə bağlıdır. Türkiyəyə 289 milyon dollar, Birləşmiş Ərəb Əmirliklərinə 250 milyon dollar, Böyük Britaniyaya 176 milyon dollar, İtaliyaya isə 118 milyon dollar birbaşa investisiya yatırılıb.

Beləliklə, 2025-ci il ərzində Azərbaycan digər uğurlara da imza atıb ki, bu uğurların təməlində Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən iradəli və müstəqil iqtisadi siyasət strategiyası dayanır.

***ELBRUS CƏFƏRLİ***

# Türk dövlətlərinin ÜDM-i 2 trilyon dollara çatıb

Türk Dövlətləri Təşkilatının (TDT) Katibliyinin 8 dildə təqdim etdiyi “Türk iqtisadi icmalı”nın 2025-ci ilin yanvar-sentyabr dövrünü əhatə edən buraxılışı nəşr olunub. Nəşrdə TDT-yə üzv ölkələrdə makroiqtisadi göstəricilərin dinamikası, xarici ticarət, fiskal inkişafları və struktur transformasiya meyillərinə dair əhatəli qiymətləndirmə əks olunub. İqtisadi statistikaya əsasən, 2025-ci ilin ilk 9 ayı ərzində TDT ölkələrində Ümumi Daxili Məhsul (ÜDM) artım tempi təxminən 6 faiz təşkil edib ki, bu da qlobal iqtisadi artımın təxminən 3 faizlik səviyyəsindən xeyli yüksəkdir. Hesabat dövründə TDT ölkələrinin ümumi ÜDM-i 1,79 trilyon dollara çataraq qlobal ÜDM-in təxminən 2 faizini formalaşdırıb. Qırğızıstanda ÜDM artımı təxminən 10 faiz, Özbəkistanda 7,2 faiz, Macarıstanda 6,5 faiz, Şimali Kiprdə 6,4 faiz, Qazaxıstan və Türkmənistanda isə təxminən 6,3 faiz səviyyəsində qeydə alınıb. Türkiyədə iqtisadi artım 4 faiz ətrafında formalaşıb. Azərbaycanda isə 1,3 faizlik iqtisadi artım təmin olunub.

Xarici ticarət iqtisadi fəallığın əsas dayaqlarından biri olaraq qalır. 2025-ci ilin yanvar-sentyabr aylarında TDT ölkələrinin ümumi ticarət dövriyyəsi 958,5 milyard dollara çataraq qlobal ticarətin təxminən 3,6 faizini təşkil edib. Bu göstərici regionun qlobal ÜDM-dəki payından yüksək olmaqla, TDT iqtisadiyyatlarının xarici inteqrasiyasının dərinliyini əks etdirir. Enerji ixrac edən ölkələr ticarət profisitlərini qoruyub. Azərbaycanda ticarət profisiti təxminən 0,9 milyard dollar, Qazaxıstanda isə 7,7 milyard dollar səviyyəsində olub. Özbəkistanda sənaye, kənd təsərrüfatı və emal olunmuş məhsullar hesabına ixracın əhəmiyyətli artımı müşahidə edilib.

İnvestisiya fəallığı regionun əksər ölkələrində yüksək səviyyədə olub. Sabit kapitala yönələn investisiyalar iri infrastruktur layihələri, nəqliyyat-logistika təşəbbüsləri və enerji layihələri hesabına genişlənib. Maliyyə sektorunda vasitəçilik imkanları artıb. Türkiyədə bank aktivləri 1,05 trilyon dolları ötüb, Qazaxıstan və Özbəkistanda isə bank aktivlərində ikirəqəmli artım qeydə alınıb. İnvestisiya axınları əsasən enerji infrastrukturu, istehsal gücləri, logistika və rəqəmsal xidmətlər üzərində cəmləşib.

## Türk İnvestisiya Fondu regional maliyyə institutuna çevrilir

Türk dövlətlərinin ortaq maliyyə strukturu olan Türk İnvestisiya Fondu türk ölkələrinin iqtisadiyyatında aktiv səhmdar kimi çıxış edir. Azərbaycan, Qazaxıstan, Qırğızstan, Türkiyə və Özbəkistan tərəfindən təsis edilmiş fond türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir. Üzv ölkələrin üzvlük haqqı, investisiya ayırmaları, əsas kapital və əlavə maliyyə alətlərindən formalaşacan fondun nizamnamə kapitalı ilkin mərhələdə 500 milyon dollar müəyyən edilib, kapital fondu hər biri nominal dəyəri 50 min dollara bərabər 10 min paya bölünüb ki, burada hər üzv ölkənin limitə uyğun payı vardır. Bundan başqa, fondun nizamnamə kapitalı ödənilmiş paylara və yenidən çağrıla bilən, yəni cəlb edilən paylara bölünüb ki, ümumi nominal dəyər 350 milyon dollar təşkil edir. Əlavə maliyyələşmədə ölkələr üzrə ümumi nominal dəyər isə 150 milyon dollardır. Gələcəkdə, fondun maliyyə portfelinin daha da artırılaraq 1 milyard dolları ötəcəyi istisna olunmur.



## Orta Dəhlizdə ortaq qərarlar

Azərbaycan türk dövlətləri ilə nəqliyyat sahəsində də əməkdaşlığı gücləndirir, son illər ərzində nəqliyyat infrastrukturunu - avtomobil yolları, dəmir yolu xətləri, dəniz limanı, gəmiqayırma zavodu, hava nəqliyyatı böyükhəcmli sərmayələr hesabına müasirləşdirilir. Xəzər dənizində 50-dən çox ticarət gəmisi olan Azərbaycan türk dövlətləri üçün önəmli tranzit xidmətləri göstərir. Hazırda Bakı Gəmiqayırma Zavodunda 10 yeni gəmi inşa edilir. Ələt Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma qabiliyyəti 15 milyon tondan 25 milyon tona çatacaq. Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. Sayca 9-cu hava limanı yaxın zamanlarda istifadəyə veriləcək. 9 beynəlxalq hava limanından 3-ü Azərbaycanın erməni işğalından azad edilmiş ərazisindədir. Həmçinin 1,5 milyon ton yük qəbuletmə imkanı olan karqo terminalı inşa edilir.

Nəqliyyat infrastrukturunun modernləşdirilməsi açıq dənizlərə çıxışı olmasa da, Azərbaycanı Asiya və Avropa arasında nəqliyyat-logistika mərkəzlərindən birinə çevirib və imkanlar durmadan daha da artır. Türkiyənin və Mərkəzi Asiya dövlətlərinin Azərbaycan ərazisindən tranzit keçən daşımalarının həcmi 2024-cü ildə 11 milyon ton təşkil edib. Qonşu ölkələrlə yeni əməkdaşlıq formatları yaradan Azərbaycan müştərək müəssisələr qurmaqla, Orta Dəhlizin coğrafiyasını ən işlək haba çevirməkdədir. Bu dəhlizin ən axıcı qollarından biri olan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun daşıma qabiliyyəti keçən il Azərbaycanın vəsaiti hesabına 5 milyon tona çatdırılıb ki, bu da BTQ-nin nəqliyyat xəritəsində strateji əhəmiyyətindən xəbər verir.

Orta Dəhlizin rəqəmsallaşdırılmasına böyük önəm verən respublikamız hazırda Xəzər dənizi limanları arasında nəqliyyat əməliyyatlarının və ticarətin sadələşdirilməsini nəzərdə tutan vahid rəqəmsal platformanın yaradılması layihəsi üzərində işləri də davam etdirir.

Ümumilikdə, 2025-ci ilin yanvar-sentyabr aylarına dair məlumatlar göstərir ki, Türk Dövlətləri Təşkilatına üzv ölkələr qlobal orta göstəricilərdən daha sürətlə böyüyür, iqtisadi ölçülərinə nisbətən daha intensiv ticarət aparır və investisiya, əlaqəlilik və struktur transformasiyaya daha çox resurs yönəldirlər. Şaxələndirmə, regional inteqrasiya və infrastrukturun inkişafı istiqamətində irəliləyişlərin sonrakı dövrlərdə iqtisadi artım tempini dəstəkləməsi gözlənilir.

***E.CƏFƏRLİ***

# Bakı-Vaşinqton əlaqələri: yeni məzmun, gələcəyə hesablanmış prioritetlər

## Prezident İlham Əliyev: “Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir”

2025-ci ilin ən mühüm siyasi məqamlarından biri Azərbaycan-ABŞ münasibətlərinin yeni əməkdaşlıq və tərəfdaşlıq fonunda inkişaf mərhələsinə qədəm qoyması oldu. Son illərdə bəzi məqamlarda müəyyən qeyri-adekvat fonda inkişaf edən Bakı-Vaşinqton əlaqələri məhz ötən il daha praqmatik, qarşılıqlı maraqlara söykənən məcraya yönəldi. Qlobal geosiyasi proseslərin sürətlə dəyişdiyi, yeni nizamın formalaşdığı bir şəraitdə Azərbaycanın artan regional və beynəlxalq rolu ABŞ üçün də strateji əhəmiyyət daşımağa başladı.

Təbii ki, Azərbaycanın enerji təhlükəsizliyi sahəsində etibarlı tərəfdaş kimi mövqeyinin möhkəmlənməsi, nəqliyyat-logistika layihələrində oynadığı açar rol, eləcə də Cənubi Qafqazda sülh və sabitliyin təmininə verdiyi töhfələr Vaşinqtonun Bakıya yanaşmasında realist baxışın ön plana çıxmasına səbəb olan aparıcı amillərdir - xüsusilə postmünaqişə dövründə Azərbaycanın nümayiş etdirdiyi məsuliyyətli siyasət, beynəlxalq hüquqa əsaslanan mövqeyi və çoxtərəfli əməkdaşlığa açıq olması ABŞ-Azərbaycan münasibətlərinin yenidən dəyərləndirilməsini zəruri etdi.

### “Xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır”

Bəli, müşahidə olunan intensiv siyasi dialoq, qarşılıqlı səfərlər və əməkdaşlıq gündəliyinin genişlənməsi göstərdi ki, tərəflər münasibətləri keçmiş stereotiplərdən uzaq, gələcəyə hesablanmış tərəfdaşlıq modeli üzərində qurmağa maraqlıdırlar. Bu yeni mərhələ təkcə ikitərəfli münasibətlər üçün deyil, bütövlükdə regionda uzunmüddətli sabitlik və əməkdaşlıq perspektivləri baxımından da mühüm əhəmiyyət kəsb edir. Xüsusilə, ötən ilin avqustunda Vaşinqtonda baş tutan görüş, Vaşinqtonun Cənubi Qafqazda sülhün bərqərar edilməsinə dəstəyi, Zəngəzur dəhlizinin (TRIPP) reallaşmasına verdiyi siyasi dəstək əlaqələrin yeni fonda inkişafını təmin etmiş oldu. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziyalara müsahibəsində bildirib ki, Azərbaycan-Amerika münasibətlərinin kontekstində də 2025-ci il tarixi il sayıla bilər. Çünki sirr deyil ki, Azərbaycan dövlət müstəqilliyini qazandıqdan sonra Amerika-Azərbaycan əlaqələrinin üzərində bir qara bulud kimi mənfur 907-ci düzəliş, necə deyərlər, fırlanırdı və Azərbaycan gənc, müstəqil ölkə olmasına baxmayaraq, Amerika kimi dünya miqyasında bir nömrəli dövlətlə lazımi səviyyədə münasibətlər qura bilməmişdi - Amerikadakı anti-Azərbaycan qüvvələrin fəaliyyəti, erməni lobbisinin fəaliyyəti nəticəsində: “Artıq bu məhdudiyyət də yoxdur və bunun təbii ki, iki əsas səbəbi var: birincisi, Ermənistan-Azərbaycan müharibəsinin rəsmən sona çatması, ikincisi, Amerikada Prezident Tramp administrasiyasının hakimiyyətdə olması. Bu administrasiya çox praqmatik, çox peşəkar və Amerikanın milli maraqlarının nə olduğunu çox yaxşı bilən üzvlərdən ibarətdir, Prezident başda olmaq şərti ilə. Təbii ki, Azərbaycan kimi bölgədə güclü potensialı və nüfuz dairəsi olan ölkə ilə əməkdaşlıq Amerika Birləşmiş Ştatları üçün də önəmlidir. Bizim üçün də. Ona görə bu nöqteyi-nəzərdən keçən il də dönüş ili sayıla bilər. Ağ Evdə Prezident Tramp mənim orada iştirakımla keçirilən mərasimdə 907-ci düzəlişə son qoydu, bunu aradan qaldırdı. Halbuki hələ Konqres bunu rəsmən aradan qaldırmalıdır. Amma xüsusilə mənim iştirakımla Prezident tərəfindən atılan bu addım, təbii ki, rəmzi məna daşıyır”.





### Artıq bu istiqamətdə fəal iş başlayıb...

Avqust görüşü ikitərəfli əlaqələrin həm xarakterini, həm də mahiyyətini yeni istiqamətdə müəyyənləşdirdi. Qarşılıqlı maraq kəsb edən sahələrdə strateji tərəfdaşlığın gücləndirilməsinə xidmət edəcək Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması məqsədilə iki ölkə arasında Strateji İşçi Qrupunun yaradılması ilə bağlı qərarın verilməsi praktiki əməkdaşlıq üçün institusional çərçivənin təsis edilməsi deməkdir. “Azərbaycan-ABŞ Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması haqqında Strateji İşçi Qrupunun yaradılması” Anlaşma Memorandumu iki ölkə arasında məzmun etibarı ilə yüksək olan tərəfdaşlığa yeni rəng qatır - bu sənədin imzalanması Bakı-Vaşinqton əlaqələrində mühüm ştrixləri ortaya çıxarır. Belə ki, sənədin imzalanması Azərbaycan ilə ABŞ arasında əlaqələrin yaxın tərəfdaşlıq səviyyəsinə qalxdığını göstəriri - sənədə görə, ABŞ artıq Cənubi Qafqazda sabitlik, enerji, nəqliyyat, təhlükəsizlik məsələlərində məhz Bakı ilə strateji koordinasiya aparmağı prioritet sayır. Eyni zamanda, iki ölkə arasındakı əməkdaşlıq institusional çərçivəyə salınır - başqa sözlə, münasibətlərin inkişaf imkanları artıq siyasi bəyanatlarla deyil, konkret planlar, yol xəritələri və hüquqi mexanizmlərlə idarə olunacaq. ABŞ ilə Azərbaycan arasında dialoqun daha da genişlənməsi və şaxələnməsinə imkan yaradan bu sənəd çoxspektli əlaqələrdə yeni format müəyyənləşdirir. Dövlət başçısı müsahibəsində deyib ki, Amerika ilə Azərbaycan arasında strateji işçi qrupunun yaradılması sənədi imzalanmışdır: “Bu işçi qrupunun əsas fəaliyyəti strateji tərəfdaşlıq xartiyasını hazırlamaqdır və artıq bu istiqamətdə də fəal iş başlamışdır”.

### Bütün məsələlər istədiyimiz kimi öz həllini tapdı...

Bu ilin avqustunda Vaşinqtonda aparılan danışıqlar, eləcə də, Zəngəzur dəhlizi (TRIPP) layihəsinin reallaşması ilə bağlı əldə edilən tarixi razılaşma Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında yeni nəqliyyat-kommunikasiya xəttlərinin açılması baxımından da böyük əhəmiyyət daşıyır. Paralel olaraq bu razılaşma Azərbaycanla yanaşı, bütün region üçün strateji dönüş nöqtəsi sayılır. Prezident Donald Trampın iştirakı ilə təsdiqlənən dəhliz ABŞ-ın Cənubi Qafqazda rəsmi Bakının iradəsi ilə həyata keçən sülh prosesinə dəstəyinin açıq ifadəsidir. Vaşinqtonun prosesdə iştirakı bu yolun açılmasının siyasi ifadəsi olmaqla yanaşı, Azərabaycan - ABŞ münasibətlərində də yeni bir mərhələdir. Dövlət başçısı müsahibəsində qeyd edib ki, Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. “Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir. Beləliklə, bizə Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlər istədiyimiz kimi öz həllini tapdı. Əlbəttə, Ermənistanla Azərbaycan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, imzaladığımız birgə Bəyannamə təbii ki, göz önündədir. Prezident Tramp şahid qismində bu Bəyannaməyə öz imzasını atdı. Bütün bunlar və digər önəmli hadisələr dediyiniz məsələyə bəlkə də daha geniş prizmadan aydınlıq gətirir”, - deyə Prezident İlham Əliyev vurğulayıb.

### Ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir...

2025-ci ildə qoyulan bu təməl gələcək illərdə münasibətlərin daha dolğun və işgüzar inkişafını təmin edəcək. Vaşinqton - Bakı münasibətlərində bir sıra yeni məqamlar yaranacaq ki, bu da ümumi inkişaf tempinə müsbət təsiri ilə seçiləcək. Ötən il intensiv formada həyata keçirilən qarşılıqlı səfərlər, dolğun müzakirələr, xüsusi sahələr üzrə razılaşmalar bunu deməyə əsas verir. Prezident İlham Əliyev deyib ki, eyni zamanda, bu gün çox fəal diplomatik hərəkət var. Azərbaycanla Amerika arasındakı əlaqələr çox praktik və nəticəyə hesablanmış istiqamətdə cərəyan edir: “Oktyabr ayından bu yana mənim tərəfimdən Amerikaya nazirlərdən və özəl sektor nümayəndələrindən, digər məsul şəxslərdən ibarət dörd rəsmi heyət ezam edilmişdir. Demək olar ki, əsas istiqamətlər üzrə strateji xartiyanın hazırlanması və qarşılıqlı sərmayə qoyuluşu, onun təşkili və münasibətlərimizin iqtisadiyyat, ticarət, nəqliyyat, hərbi-sənaye istiqamətlərinin əhatə edilməsi məsələləri müzakirə olunur. Yəni ümidlərimiz böyükdür, nəticələr də kifayət qədər təsirlidir. Ona görə bu nöqteyi-nəzərdən 2025-ci ili təbii ki, çox uğurlu və tarixi il saymaq olar”.

***P.İSMAYILOV***

---

# Uğurlu diplomatiya...





***Nardar BAYRAMLI***

Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Ölkəmiz xarici siyasətində milli maraqlar və beynəlxalq hüquq normaları ilə yanaşı, sülh, sabitlik, inkişaf, qarşılıqlı faydalı əməkdaşlıq kimi meyarları əsas götürür, yeni və daha mütərəqqi dəyərlər təqdim edir. Bu isə həm də regional və qlobal inkişafa, sabitliyə, təhlükəsizliyə töhfə kimi xarakterizə edilir. Digər tərəfdən, milli maraqlara uyğun olaraq reallaşdırılan xarici siyasət sayəsində ölkəmiz həm ikitərəfli münasibətlərini, həm də beynəlxalq təşkilatlar çərçivəsində səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini uğurla davam etdirir.

**Azərbaycanın dostları artır**

Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa etdikdən sonra Cənubi Qafqazda yeni mənzərə yaranıb. Bu, dövlətimizin yaratdığı yeni reallıqlardan ibarətdir. Torpaqlarını işğaldan azad etdikdən sonra Azərbaycanın nəinki regionda, bütövlükdə, beynəlxalq müstəvidə mövqeləri əhəmiyyətli dərəcədə güclənib. Bu amil beynəlxalq müstəvidə  də mühüm rol oynayır. Azərbaycan hazırda regional miqyaslı, qlobal xarakterli əməkdaşlıq platformasının mərkəzi oyunçusu kimi çıxış edir. Məhz bunun nəticəsində də dünyada Azərbaycanın dostları artmaqdadır. Bir çox ölkələr Azərbaycanı dost və etibarlı tərəfdaş hesab edir. Ölkəmizin nüfuzu müxtəlif ölkələrdə keçirilən beynəlxalq tədbirlərdə də xüsusi vurğulanır. Eləcə də ölkəmizə mötəbər beynəlxalq tədbirlərə ev sahibliyi etmək üçün etimad göstərilir.

Qeyd edək ki, başa vurduğumuz 2025-ci ildə beynəlxalq münasibətlər sistemində artan geosiyasi gərginliklər, qlobal təhlükəsizlik arxitekturasında baş verən dəyişikliklər və qeyri-müəyyənliklər fonunda da, daxili sabitlik və davamlı inkişafa arxalanan Azərbaycan Respublikası beynəlxalq hüququn norma və prinsipləri əsasında müstəqil və praqmatik xarici siyasət kursunu uğurla davam etdirib. Belə ki, Azərbaycanın milli maraqlarının təmin olunması məqsədilə ölkəmiz dəyişən geosiyasi şəraitdə çevik, məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirərək ikitərəfli və çoxtərəfli münasibətlərində əməkdaşlıq mexanizmlərini gücləndirib, beynəlxalq səviyyədə nüfuzunu və təsir imkanlarını nəzərəçarpacaq dərəcədə artırıb. Şanlı zəfərimizin, ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpasının 5 illiyinin qeyd olunduğu 2025-ci ildə regionda dayanıqlı və qalıcı sülhün bərqərar edilməsi üçün yaranmış tarixi fürsətlərdən istifadə edərək, Azərbaycan və Ermənistan arasında suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında münasibətlərin normallaşdırılması ölkəmizin regiondakı siyasətinin əsas istiqamətlərindən biri olub. 8 avqust 2025-ci il tarixində Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşündə Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamə, habelə “Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş” layihəsinin paraflanması və digər razılaşmalar bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan verib.

**Ötən il Prezident 20-ə yaxın ölkəyə səfər edib**

Yeri gəlmişkən, Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı dövlətimizin uğurlu xarici siyasətindən bəhs edib. Dövlət başçısı ötən il ərzində 20-ə yaxın xarici ölkəyə səfər etdiyini bildirib, eləcə də bir çox dövlət və hökumət başçılarının Azərbaycana səfəri baş tutub. Prezident müsahibədə ölkəmizin  Çinlə olan strateji tərəfdaşlını xüsusi vurğulayaraq deyib: “Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər”.

Eyni zamanda, dövlət başçısı Azərbaycanın D-8 təşkilatına üzvlüyünü böyük nailiyyət adlandırıb. Qeyd edək ki, təşkilatın təməli Türkiyənin təşəbbüsü ilə 1996-cı il oktyabrın 22-də İstanbulda Banqladeş, İndoneziya, İran, Malayziya, Misir, Nigeriya və Pakistanın əməkdaşlığı ilə təşkil edilən İnkişaf Əməkdaşlıq Konfransında atılıb. 1997-ci il iyunun 15-də İstanbulda 8 ölkənin dövlət və hökumət başçılarının sammitində təşkilat rəsmən elan olunub. Təşkilatın katibliyi İstanbul şəhərində yerləşir. Azərbaycan 2024-cü il dekabrın 19-da Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan 8 ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı bu quruma üzv seçilib. Prezident İlham Əliyevin uğurlu xarici siyasətinin məntiqi nəticəsi olan D-8-ə üzvlüyümüz təşkilat yarandığı gündən ilk genişlənmə kimi əlamətdardır. Ötən il D-8 İqtisadi Əməkdaşlıq Təşkilatının Bakıda keçirilən D-8 Həftəsi çərçivəsində komissarların qeyri-rəsmi iclası, iqlim və şəhərsalma üzrə nazirlər dialoqu, D-8 Media Forumu, eləcə də D-8 Gənclər Dialoqu təşkil olunub, təşkilatın strateji sənədlərində əks olunan prioritetlərə uyğun olaraq D-8 Enerji və İqlim Mərkəzi, D-8 Nəqliyyat Mükəmməllik Mərkəzi və D-8 Media Mərkəzinin Azərbaycanda yaradılması barədə razılıq əldə olunub. Tarix boyu Şərq ilə Qərb arasında körpü rolu oynamış, İslam dünyasının əsas mədəni, dini və sivilizasiya mərkəzlərindən biri olan Azərbaycanın D-8 üzvlüyü, eyni zamanda, İslam həmrəyliyinin möhkəmlənməsində, İslam dəyərlərinin dünyada təbliğində və İslamofobiya ilə mübarizə sahəsində böyük töhfədir.

**Nadir hadisə!**

Ötən il xarici siyasətimizdə əsas uğurlardan biri də Azərbaycanın Mərkəzi Asiya Məşvərət Şurasına tamhüquqlu üzv seçilməsidir. Dövlət başçısı müsahibədə bu faktı nadir hadisə kimi dəyərləndirərək vurğulayıb: “Çünki təbii ki, coğrafi nöqteyi-nəzərdən biz Mərkəzi Asiyada yox, Cənubi Qafqazda yerləşirik. Ancaq Mərkəzi Asiya ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli formatlarda o qədər sıx əlaqələrimiz var və son illər o qədər çox layihələr icra edilir ki, artıq bu ölkələr yekdilliklə bizi tamhüquqlu üzv seçdilər. Biz bunu da böyük bir siyasi və diplomatik uğur hesab edə bilərik. Mən Prezident kimi artıq iki il ardıcıllıqla fəxri qonaq kimi Zirvə görüşlərinə dəvət olunurdum. Amma iştirakımla keçirilən üçüncü Zirvə Görüşündə artıq tamhüquqlu üzv seçildik. Əlbəttə ki, bu gün təkcə bizim bölgəmiz üçün yox, dünya üçün Mərkəzi Asiya-Azərbaycan birliyi və C5-in C6-ya çevrilməsi böyük əhəmiyyət daşıyır. Çünki bağlantılar, nəqliyyat, logistika bu gün bir çox aparıcı beynəlxalq aktor üçün böyük önəm daşıyır və burada Mərkəzi Asiyanı Qərblə coğrafi nöqteyi-nəzərdən birləşdirə biləcək yeganə etibarlı ölkə Azərbaycandır”.

Ötən il, həmçinin Xankəndi şəhərində İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) və Qəbələdə Türk Dövlətləri Təşkilatının (TDT) sammitlərinin keçirilməsi və s. hadisələr də xarici siyasətimizin nailiyyətləri sırasındadır. Bütövlükdə, 2025-ci ildə Azərbaycan dünyada sülh, təhlükəsizlik və dayanıqlı inkişafın təmin olunmasına öz müsbət töhfəsini verib və bu çərçivədə müvafiq müraciətlərə uyğun olaraq bir sıra ölkələr arasında diplomatik vasitəçilik missiyalarını həyata keçirib. Ötən il, həm də ölkəmiz çoxtərəfli əməkdaşlığın təşviqi, qlobal çağırışlara çevik və effektiv reaksiyaların verilməsi, beynəlxalq yardım fəaliyyətləri, beynəlxalq iqtisadi əməkdaşlıq və iqlim diplomatiyası istiqamətində də səmərəli fəaliyyətini davam etdirib.

# 2025-ci il sülh prosesində tarixi il oldu

**Cənubi Qafqaz regionunda dayanıqlı sülh üçün əlverişli mühit mövcuddur. Azərbaycanın prinsipial və sülhpərvər siyasəti nəticəsində bu istiqamətdə ciddi nəticələr əldə edilib. Azərbaycan Prezidenti İlham Əliyevin ardıcıl sülh təşəbbüsləri bölgədə uzun illərdir davam edən hərbi münaqişəni dayandırmaqla yanaşı, qarşılıqlı etimadın əsaslarını müəyyənləşdirir.**

Münaqişə başa çatdıqdan sonra xalqımızın uzun illər ərzində məruz qaldığı əzab-əziyyətə, məhrumiyyətlərə və dağıntılara baxmayaraq, Azərbaycan tərəfindən Ermənistanla davamlı sülhün təmin edilməsi istiqamətində fəal iş aparılıb. Məqsəd regionun sülh və əməkdaşlıq məkanına çevrilməsidir. Azərbaycan regionda sülhün bərqərar olması naminə irəli sürülən bütün ədalətli beynəlxalq təşəbbüsləri dəstəkləyib. Lakin bu prosesdə tərəflərin heç bir vasitəçi olmadan birbaşa dialoqu müsbət nəticələr verib. Ötən ilin 8 avqustunda Vaşinqtonda əldə edilən razılaşmalar da bunun göstəricisidir. Yeri gəlmişkən, yanvarın 5-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirib ki, keçən il doğrudan da tarixi il sayıla bilər: "Çünki məhz keçən 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq".

Məlumdur ki, Ermənistandakı revanşist əhval-ruhiyyəli qüvvələr, onların xaricdəki havadarları dünya birliyinin 44 günlük müharibənin və 23 saatlıq antiterror tədbirlərinin nəticələrini tanımamasına nail olmağa çalışırdılar, bəzi ölkələrin parlamentlərində hansısa bəyanatlar, qətnamələr qəbul olunurdu. Ancaq beynəlxalq hüquq çərçivəsində davranan, ədalətli müharibənin qalibi olan Azərbaycan təzyiqlər qarşısında geri çəkilməyərək öz həqiqətlərini müdafiə etməyi bacardı. Xatırladaq ki, Azərbaycan sülh sazişi imzalamaq üçün qarşı tərəfə 5 bənddən ibarət təkliflərini təqdim etmişdi. Bu baza prinsiplərində ilk olaraq dövlətlərin bir-birinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması əks olunub. İkincisi, dövlətlərin bir-birlərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsidir. Üçüncüsü, dövlətlərarası münasibətlərdə bir-birlərinin təhlükəsizliyinə hədə törətməkdən, siyasi müstəqillik və ərazi bütövlüyünə qarşı hədə və gücdən istifadə etməkdən, habelə BMT Nizamnaməsinin məqsədlərinə uyğun olmayan digər hallardan çəkinmək, dördüncüsü, dövlət



## 8 avqust Vaşinqton razılaşmalarının əhəmiyyəti...

sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulmasıdır. Beşinci bənd isə nəqliyyat və kommunikasiyaların açılışı, digər müvafiq kommunikasiyaların qurulması və qarşılıqlı maraq doğuran digər sahələrdə əməkdaşlığın qurulmasından ibarətdir. İki dövlət ötən müddət ərzində məhz bu baza prinsipləri əsasında intensiv, substantiv və nəticəyə yönəlik danışıqlar apararaq ikitərəfli sülh sazişi ilə bağlı danışıqları yekunlaşdırdılar. Çünki rəsmi Bakının sülh sazişinin imzalanması üçün irəli sürdüyü təkliflər beynəlxalq hüquq normalarına əsaslanıb. Tərəflər ötən ilin mart ayında sülh sazişi layihəsinin mətninin razılaşdırıldığını bəyan ediblər.

Beləliklə, postmüharibə dövründə Azərbaycan qalib tərəf olmasına rəğmən, beynəlxalq prinsiplərdən çıxış etməklə sülh təşəbbüsünü irəli sürüb və daim sülh gündəliyinə dəyişməz sadiqlik nümayiş etdirib. Avqustun 8-də isə Vaşinqtonda, Ağ Evdə möhtəşəm bir tarix yazıldı. Ağ Evdə imzalanan sənədlər, ABŞ Prezidenti Donald Tramp tərəfindən dövlətimizin başçısına göstərilən xüsusi ehtiram Azərbaycan diplomatiyasının növbəti uğuru oldu.



Vaşinqton razılaşmasından sonra qarşılıqlı etimad mühitinin formalaşması üçün praktiki addımlar atılır. Hökumətlər bu yöndə müvafiq işlər görürlər. Bir müddət öncə Azərbaycan və Ermənistanın vətəndaş cəmiyyətinin nümayəndələ-

## Zəngəzur dəhlizinin açılması sülh və sabitliyi gücləndirəcək

rinin qarşılıqlı səfərləri sülh yolunda önəmli addımdır. Eləcə də, Ermənistana yük tranziti ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması məhz bunun göstəricisidir. Belə bir ilk tranzit Qazaxıstanın Ermənistana taxıl yükü olub. Rusiyadan da yüklərin Ermənistana Azərbaycan ərazisi vasitəsilə daşınması həyata keçirilir. Bu, həmçinin Azərbaycan ilə Ermənistan arasında sülhün yalnız kağız üzərində deyil, həm də praktikada olduğunun müsbət nümunəsidir. Eyni zamanda, Azərbaycan benzini Gürcüstan vasitəsilə Ermənistana satılır. Bu, o deməkdir ki, artıq regionda ticarət yolları açılır, sərhədlər yumşalır, qarşılıqlı etimadın formalaşması üçün mühüm zəmin yaranıb. Zəngəzur dəhlizinin açılması isə regionda iqtisadi əməkdaşlıqla yanaşı, sülh və sabitliyi daha da gücləndirəcək. Prezident İlham Əliyev də sözügedən müsahibədə uzun illər arzuladığımız Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılmasının 8 avqust Vaşinqton razılaşmalarında reallaşdığını vurğulayaraq deyib: "Yəni Zəngəzur dəhlizinin açılması artıq Amerika Prezidenti tərəfindən də təsdiqlənmişdir. Artıq mən də əminəm, Azərbaycan vətəndaşlarında şübhə yoxdur ki, Zəngəzur dəhlizi açılacaq. Onun adı fərqli ola bilər, amma mahiyyət dəyişmir. Beləliklə, bizə Ermənistanla normallaşma prosesi çərçivəsində lazım olan bütün məsələlər istədiyimiz kimi öz həllini tapdı. Əlbəttə, Ermənistanla Azərbaycan arasında paraflanmış sülh sazişinin əhəmiyyəti, imzaladığımız birgə Bəyannamə təbii ki, göz önündədir".

Beləliklə, Prezident İlham Əliyevin siyasəti nəticəsində Cənubi Qafqaz hərbi toqquşmalar məkanından əməkdaşlıq platformasına çevrilməkdədir. "Bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq. Biz artıq cəmi beş ay bu şəraitdə yaşamağımıza baxmayaraq, bunun bəhrəsini görürük - həm siyasi, həm iqtisadi müstəvidə. Cəmiyyətdə mövcud olan xoş əhvali-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək",-deyə dövlət başçısı müsahibədə söyləyib. Azərbaycanın sülh təşəbbüsləri bu gün həm beynəlxalq aləmdə, həm də region müstəvisində etimad qazanıb.

## Prezident: Bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq

Yekun sülh müqaviləsini imzalamaq üçün isə rəsmi İrəvan üzərinə düşən öhdəlikləri yerinə yetirməlidir. Bu da ondan ibarətdir ki, Ermənistan konstitusiyasından və digər qanunvericilik aktlarından Azərbaycana qarşı ərazi iddiaları çıxarılmalıdır. Bu il reallaşmalı olan konstitusiya dəyişikliklərində rəsmi İrəvan sözügedən məsələni həll etməlidir.

*Nardar BAYRAMLI*

# Azərbaycanın qürur doğuran reallığı - xalqlar və etiqadlar arasında milli-mənəvi həmrəylik mühiti

Yüksək inkişaf göstəricilərinə malik olan Azərbaycan özünü dünyaya hər cəhətdən müsbət reallıqlara malik ölkə kimi təqdim edir. O cümlədən respublikamızdakı tolerantlıq mühiti beynəlxalq birlik üçün gözəl nümunə sayıla bilər. Azərbaycan elə bir məkandır ki, burada etiqad azadlığı təmin edilir, insanların inanclarına dərin hörmətlə yanaşılır.

Ölkəmizdə hər il müqəddəs Milad bayramının qeyd olunması da bunun əyani təsdiqidir. Hər zaman dünyaya multikulturalizm çağırışları edən Prezident İlham Əliyev bu müqəddəs bayram münasibətilə pravoslav xristian icmasına təbrik məktubu ünvanlayıb. Azərbaycanın bütün xristian icmasına xoş arzularını çatdıran dövlətimizin başçısı təbrik məktubunda ölkəmizin nümunəvi multikultural mühitinə diqqət çəkib. "Azərbaycanda yüz illərdir ki, ayrı-ayrı xalqlar və etiqadlar arasında qarşılıqlı hörmət və etimada, mehriban dostluq və qardaşlığa əsaslanan milli-mənəvi həmrəylik mühiti hökm sürür", - deyə məktubda vurğulanır.



**Tarixdən gələn zəngin tolerantlıq ənənələri**

Hazırda sivilizasiyanın yüksək mərhələsinə çatan bəşəriyyət eyni zamanda bir sıra ciddi sınaqlarla üzləşib. Dünyada müşahidə edilən mənzərə heç də ürəkaçan deyil. Dünyanın olduqca narahat mənzərəsinin ən diqqətçəkən amillərindən biri də mədəniyyətlərarası dialoqla bağlıdır. Bir sıra hallarda sivilizasiyalararası qarşıdurmaların müşahidə edilməsi son dərəcə kədərli təəssüratlar oyadır. Bəşəriyyət sanki geridönüş edir və ayrı-ayrı məkanlarda dinlər, etiqadlar, irqlər arasında qarşıdurmalar açıq müstəviyə keçir. Ən qorxulu cəhət ondan ibarətdir ki, mədəniyyətlərarası dözümsüzlük əksər hallarda müəyyən qüvvələr, hətta dövlətlər səviyyəsində təşviq edilərək qızışdırılır. Bütün səmavi dinlər bəşəriyyəti bərabərliyə və humanizmə çağırır. Təəssüf doğuran haldır ki, bugünkü Avropada hətta dini dəyərlər belə manipulyasiya peredmetinə çevrilib. Tam qətiyyətlə deyə bilərik ki, hazırda öz dəyərlərindən və ənənələrindən uzaqlaşan "qoca qitə"də bir sıra hallarda dini təəssübkeşliyə çağırışlar edilir, islamofobiya həyat normasına çevrilir. Son illərdə Yaxın Şərqdə alovlanan münaqişələrin və müharibələrin ssenariləri bir qayda olaraq Qərb dairələrində hazırlanır. Sadə, günahsız insanlar aclıqdan, səfalətdən, dağıntılardan xilas olmaq naminə Avropaya üz tuturlar. Burada isə onların üzünə qapılar bağlanır. Bir sıra Qərb ölkələrində hətta liderlər səviyyəsində multikulturalizmin iflasa uğradığı bildirilir.

Dünyadakı belə kədərli mənzərə ilə müqayisədə respublikamızın reallıqları tamam fərqli rakursdan diqqət çəkir. Başqa dinlərə, mədəniyyətlərə saygılı münasibət bəslənilməsi Azərbaycanda oturuşmuş bir ənənədir. Tarix boyunca respublikamızın ərazisində müxtəlif inanclara məxsus insanlar əmin-amanlıq şəraitində yaşayaraq öz gələcəklərini qurublar. Tarixdən gələn ənənələr bu gün də yaşayır. Azərbaycan çoxkonfessiyalı dövlətdir. Hazırda ölkə əhalisinin 96 faizini müsəlmanlar, 4 faizini xristian, yəhudi və digər dinlərin nümayəndələri təşkil edirlər. Lakin belə fərqlilik ölkəmizdə əsla ayırıcı xətlər yaratmır. Azərbaycanın fərqli nümunəsinə diqqət çəkən Prezident İlham Əliyev "Zəngin tolerantlıq ənənələri ilə tanınan Azərbaycanda bu gün hər kəs mədəni özünüifadə imkanlarına malikdir. Dilindən, dinindən, milli mənsubiyyətindən asılı olmayaraq, ölkəmizin bütün vətəndaşlarına, o cümlədən xristian icmasına etnik-mədəni özünəməxsusluğunu qoruyub saxlamaq və daha da inkişaf etdirmək üçün hərtərəfli demokratik-hüquqi şərait yaradılmışdır", - deyə vurğulayıb.

Azərbaycanda xristian həmvətənlərimiz inanclarına uyğun ayin və mərasimləri sərbəst şəkildə həyata keçirməklə öz adət-ənənələrini layiqincə yaşadırlar. Pravoslav xristian icmasının hər il yanvarın 7-də ənənəvi olaraq Milad bayramını təntənəli şəkildə qeyd etməsi bunun daha bir təsdiqidir. Milad bayramı yanvarın 6-dan başlayır. Pravoslavlara görə bu, 40 günlük orucun son günüdür. Milad orucu 12 yağsız yeməyin düzüldüyü və onların hər birindən dadılması zəruri sayılan şam süfrəsi ilə bitir: yanvarın 7-də bütün məhdudiyyətlər aradan qaldırılır və artıq əsl bayram ziyafəti təşkil etmək olar. Prezident İlham Əliyev vurğulayıb ki, Milad bayramı yeniliyi, paklığı, mərhəmət və xeyirxahlıq kimi ülvi hissləri özündə təcəssüm etdirir.

**Dövlət siyasətinin prioritet istiqamətlərindən biri**

Azərbaycanı fərqləndirən cəhət həm də ondan ibarətdir ki, ölkəmizdə multikulturalizm dövlət tərəfindən ardıcıl şəkildə dəstəklənir. Prezident İlham Əliyev dünyada multikulturalizmə davamlı şəkildə çağırış edən azsaylı liderlər sırasında yer alır. "Cəmiyyətimizdə yüksək birgəyaşayış mədəniyyətinin, mənəvi-əxlaqi normaların, multikultural dəyərlərin və dözümlülük prinsiplərinin təbliği və təşviqi həyata keçirdiyimiz dövlət siyasətinin prioritet xəttini təşkil edir", - deyə dövlətimizin başçısı bildirib.

Onilliklər ərzində qonşu dövlətin işğalçılıq siyasətindən əziyyət çəkmiş Azərbaycanın hazırkı narahat dünyada sivilizasiyalararası dialoqa, multikultural dəyərlərin qorunmasına verdiyi töhfələr xüsusilə diqqətəlayiqdir. Azərbaycan öz üstünlüyünü ölkənin çoxmədəniyyətli və çoxkonfessiyalı olmasında görür. Respublikamızda İslam dininə aid tarixi-dini abidələrin bərpasına dövlət vəsaiti ayrıldığı kimi, digər dinlərlə bağlı abidələrə də eyni yanaşma tətbiq olunur. Məsələn, ölkəmizdə dövlət həmçinin rus pravoslav, katolik, alban kilsələrinin tikintisinə və bərpasına da öz dəstəyini göstərib. Əlamətdar haldır ki, Prezident İlham Əliyev həmin abidələrin bərpadan sonra açılışına şəxsən qatılaraq xeyir-duasını və tövsiyələrini verir.

Son illərdə Azərbaycan qlobal iqtisadi əhəmiyyət daşıyan, eyni zamanda multikultural dəyərləri təbliğ edən tədbirlərin keçirildiyi məkana çevrilib. Bakıda ardıcıl olaraq İlham Əliyevin təşəbbüsü ilə əsası qoyulan Mədəniyyətlərarası Dialoq və Humanitar forumlar baş tutur. Artıq bütün dünyada tanınan Qlobal Bakı Forumu Azərbaycan Prezidentinin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 2013-cü ildən keçirilir. Ölkəmiz xalqımızın xoş məramına uyğun olaraq bu kimi tədbirlərə məmnuniyyətlə ev sahibliyi etməklə hazırda dünya üçün böyük önəm daşıyan dəyərlərin qorunmasına sanballı töhfəsini verir.

Azərbaycanın əlverişli coğrafi mövqedə yerləşməsi və çoxkonfessiyalı cəmiyyətə malik olması ölkəmizin sivilizasiyalararası dialoqda rolunun artmasını şərtləndirir. Hazırda əksər Avropa təsisatlarının üzvü olan Azərbaycan eyni zamanda İslam Əməkdaşlıq Təşkilatının da üzvüdür. Dünyanın iki yüzdən artıq ölkəsini əhatə edən Avropa və Asiya təşkilatlarının üzvü olmaq respublikamızın sivilizasiyalararası əlaqələrin gücləndirilməsində, körpülərin yaradılmasında rolunu daha da artırır.

Əlamətdar haldır ki, ölkəmizdə geniş əhatə dairəsinə malik olan multikulturalizm siyasətinin həyata keçirilməsində Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu da fəal şəkildə iştirak edir. Fond indiyədək qurumun rəhbəri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə paytaxt Bakıda və regionlarda həm İslam dininə, həm də digər mədəniyyətlərə aid tarixi abidələrin bərpasını uğurla həyata keçirərək inanclı insanların istifadəsinə verib. Heydər Əliyev Fondu, həmçinin dünyanın ayrı-ayrı ölkələrində, o cümlədən də Vatikanda bir sıra tarixi-dini abidələrin bərpasını öz üzərinə götürərək onlara ikinci həyat bəxş edib.

*Mübariz FEYİZLİ*

# Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur...

## Prezident İlham Əliyev: Biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik

Müasir beynəlxalq münasibətlər sistemində sülh və təhlükəsizlik anlayışları getdikcə daha mürəkkəb xarakter alır. Regional münaqişələrin qlobal təsirlərə malik olduğu, geosiyasi maraqların humanitar dəyərlərlə toqquşduğu indiki mərhələdə dövlətlərin məsuliyyətli mövqe nümayiş etdirməsi xüsusi əhəmiyyət daşıyır. Azərbaycan bu baxımdan uzun illərdir beynəlxalq hüquqa, suverenliyə və dövlətlərin ərazi bütövlüyünə hörmət prinsiplərini əsas götürən siyasi xətt yürüdür. Xarici siyasətimizin əsas sütunlarından biri qlobal və regional sülhün təşviqi, münaqişələrin danışıqlar yolu ilə həllinə töhfə verməkdir.



İkinci Qarabağ müharibəsində əldə olunan tarixi Qələbəyə baxmayaraq, Azərbaycanın revanşizmə deyil, sülhə və əməkdaşlığa üstünlük verməsi ölkəmizin məsuliyyətli aktor olduğunu bir daha sübut etdi. Bu yanaşma təkcə Cənubi Qafqazla məhdudlaşmır, Azərbaycanın beynəlxalq sülhməramlı fəaliyyətlərə prinsipial yanaşması ilə qlobal miqyasda da özünü göstərir. Qəzza və Yaxın Şərqdə baş verən son hadisələr fonunda Bakının mövqeyi məhz bu strateji və hüquqi yanaşmanın məntiqi davamıdır. Ölkəmiz Yaxın Şərqdə sülhün bərqərar olması üçün hətta vasitəçilik missiyası belə yerinə yetirməyə hazır olduğunu bəyan edir.

**Qlobal sülhə verilən ardıcıl töhfələr...**

Bəli, Azərbaycan müstəqillik əldə etdikdən sonra beynəlxalq sülh və təhlükəsizlik təşəbbüslərinə məsuliyyətlə yanaşan ölkə kimi tanınıb. Xarici siyasət kursumuzun əsas xətti münaqişələrin güc yolu ilə deyil, dialoq və beynəlxalq hüquq çərçivəsində həllinə dəstək verməkdir. Hətta 30 ilə yaxın işğala məruz qalan tərəf olmağımıza baxmayaraq, Azərbaycan hər zaman sülh çağırışlarını ön planda saxlayıb. Vurğulandığı kimi, İkinci Qarabağ müharibəsindən sonra da Bakı qalib mövqedən çıxış edərək regionda davamlı sülhün təmin olunmasını strateji məqsəd kimi müəyyənləşdirib.

Azərbaycan eyni zamanda beynəlxalq sülhməramlı missiyalarda iştirak etməklə qlobal təhlükəsizliyə real töhfələr verib. Ölkəmizin hərbi kontingenti müxtəlif regionlarda sülhün qorunması missiyalarında iştirak edib. Lakin bu iştirak heç vaxt formal xarakter daşımayıb. Azərbaycan üçün əsas prinsip mandatın beynəlxalq hüquqa uyğunluğu, aydınlığı və təhlükəsizlik risklərinin minimum səviyyədə olmasıdır. Bu yanaşma ölkəmizin sülhməramlı fəaliyyətinin legitimliyini və etibarlılığını təmin edir. Bu missiya üzrə yeni müraciətlər belə edilir. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziyalara müsahibəsində bildirib ki, bizə belə müraciətlər daxil olub: "Təbii, bununla bağlı qərar qəbul etməzdən əvvəl biz aydın şəkildə başa düşməliyik ki, əməliyyatların mandatı necə olacaq və hansı növ əməliyyatlar ola bilər. Bizim İraqda, buna qədər isə həm Kosovoda, həm də özlüyündə Əfqanıstanda sülhməramlı əməliyyatlarda iştirak etmək təcrübəmiz var, ona görə də fəaliyyətin strukturunu çox gözəl bilirik. Əfqanıstanda bizim sülhməramlı missiyamıza gəldikdə, xoşbəxtlikdən və o cümlədən mövqeyimiz sayəsində bizim heç bir zərərçəkənimiz olmadı. Yəni bütün bu illər ərzində qurban vermədik, məhz ona görə ki, öz funksiyamızı strateji obyektlərin qorunmasında görürdük. Biz heç vaxt döyüş əməliyyatlarında iştirak etmədik və Azərbaycanın hüdudlarından kənarda döyüşlərdə iştirak etmək mənim tərəfimdən, ümumiyyətlə, nəzərdə tutulmur. Amerikalı tərəfdaşlarımızın diqqətinə çatdırdığımız ikinci amil ondan ibarət idi ki, mənim ölkəm təcavüzdən zərər görüb, Birinci Qarabağ müharibəsində böyük qurbanlar verib. Bununla belə, az olmasına baxmayaraq, İkinci Qarabağ müharibəsində də qurbanlar olub. Azərbaycanın hər bir vətəndaşı bizim üçün qiymətlidir".

**Azərbaycanın prinsipial mövqeyi...**

Hazırda dünya bir sıra ciddi geosiyasi sınaqlarla üz-üzədir. Müxtəlif regionlarda silahlı toqquşmalar, humanitar böhranlar və siyasi qeyri-sabitlik müşahidə olunur. Azərbaycan bu proseslərə münasibətdə emosional deyil, rasional və beynəlxalq hüquqa əsaslanan mövqe tutur. Bakı bütün münaqişələrin danışıqlar yolu ilə, siyasi mexanizmlər vasitəsilə həllinin tərəfdarıdır. Bununla yanaşı, ölkəmiz mandatı qeyri-müəyyən olan, hüquqi bazası formalaşmamış hərbi əməliyyatlarda iştirak etməyi yolverilməz hesab edir.

Qəzza sektorunda mövcud vəziyyət buna nümunədir. Hazırkı mərhələdə bölgədə mümkün sülhməramlı missiyanın mandatı, mexanizmi və hüquqi çərçivəsi konkret deyil. Bu səbəbdən Azərbaycan heç bir döyüş əməliyyatına qoşulmaq niyyətində deyil. Bunun əvəzində Bakı humanitar yanaşmanı ön plana çəkir. Dinc əhalinin müdafiəsi, humanitar yardımın göstərilməsi və beynəlxalq təşkilatlar çərçivəsində siyasi səylərin dəstəklənməsi Azərbaycanın əsas prioritetləri sırasındadır. Dövlət başçısı müsahibəsində deyib ki, biz kiminsə naminə azərbaycanlıların həyatını və sağlamlığını riskə atmaq niyyətində deyilik. Bizim başımız bəlada olanda öz taleyimizin hökmünə buraxılmışdıq. Heç kim bizi müdafiə etmirdi. O cümlədən Fələstinə bütün hörmətimə və dərdlərinə şərik olmağıma rəğmən. Axı, Fələstin də bizi elə də müdafiə etmirdi. Bəli, İslam Əməkdaşlıq Təşkilatının hamının dəstəklədiyi qətnamələri var idi. Biz buna görə bütün ölkələrə minnətdarıq, eynilə Azərbaycan da həm BMT-də, həm Qoşulmama Hərəkatında, həm də İslam Əməkdaşlıq Təşkilatında həmişə Fələstini və Fələstin dövlətinin yaradılmasını dəstəkləyib".

**Ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir**

Azərbaycan beynəlxalq platformalarda Fələstin məsələsində ardıcıl və dəyişməz mövqe sərgiləyir. BMT, Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Bakı Fələstin xalqının legitim hüquqlarını və iki dövlətli həll prinsipini daim dəstəkləyib. Bu mövqe Azərbaycanın beynəlxalq hüquqa sadiqliyinin və ədalətli yanaşmasının göstəricisidir.

Prinsipial siyasi mövqe real addımlarla da tamamlanır. Məhz Azərbaycanın maliyyə dəstəyi hesabına Fələstin Dövlətinin Bakıdakı səfirliyi fəaliyyət göstərir. Bu fakt ölkəmizin Fələstin məsələsinə yalnız bəyanatlarla deyil, konkret diplomatik və institusional dəstək verdiyini sübut edir. Azərbaycan üçün Fələstin məsələsi beynəlxalq hüquq və humanitar ədalət məsələsidir. Prezident bildirib ki, Azərbaycanda Fələstinin səfirliyi də fəaliyyət göstərir, həm də Azərbaycanın maliyyə yardımı sayəsində: "Ona görə də mənim mövqeyim həmişə ondan ibarət olub ki, ərəb ölkələrinin məsələlərini ərəb dövlətlərinin özləri həll etməlidir".




**Regional məsələlərin həlli üçün...**

Azərbaycan hesab edir ki, Yaxın Şərq və ərəb dünyasında baş verən proseslərin həlli ilk növbədə region ölkələrinin iradəsinə əsaslanmalıdır. Bu məsələlərdə kənar müdaxilələrin əksər hallarda vəziyyəti daha da gərginləşdirdiyi təcrübədə sübuta yetirilib. Bakı diplomatik kanallarla vəziyyəti diqqətlə izləyir və ərəb dövlətlərinin mövqeyinə hörmətlə yanaşır.

Ərəb Dövlətləri Liqasının rolu, Misir, Birləşmiş Ərəb Əmirlikləri, Səudiyyə Ərəbistanı, İordaniya kimi əsas regional aktorların təşəbbüsləri xüsusi əhəmiyyət daşıyır. Azərbaycan bu ölkələrin səylərini dəstəkləyir və hesab edir ki, dayanıqlı sülh yalnız regionun öz daxilində formalaşan siyasi iradə əsasında mümkündür. Bu yanaşma Bakının suverenliyə və regional məsuliyyət prinsipinə verdiyi önəmi bir daha nümayiş etdirir. Prezident bildirib ki, indiyədək dərindən inanıram ki, qeyri-ərəb müsəlman ölkələr parovozun önündə qaçmamalıdır: "Bu, heç bir yaxşı nəticə verməz. Ərəb Liqası var, Ərəb Liqasının mövqeyi mövcuddur, o, yetərincə aydındır və biz buna uyğun hərəkət edirik. İslam Əməkdaşlıq Təşkilatının qərarları var və biz də, o cümlədən bu qərarları qəbul etmişik və buna əməl edirik. Ona görə də lazımsız fəallıq göstərmək və yenə də parovozun önündə qaçmaq o qədər də yaxşı məşğuliyyət deyil".

**Biz razılıq verməmişik...**

Azərbaycanın qlobal və regional proseslərə yanaşması prinsipiallıq, məsuliyyət və beynəlxalq hüquqa sadiqlik üzərində qurulub. Ölkəmiz sülhü yalnız bəyanat səviyyəsində deyil, real siyasət və praktiki addımlar vasitəsilə dəstəkləyir. Qələbə qazanan dövlət kimi revanşizmə yox, dialoqa üstünlük verməyimiz Azərbaycanın beynəlxalq imicini gücləndirib və onu etibarlı tərəfdaş kimi tanıdıb. Təəssüfləndirici haldır ki, bəzi ölkələrin hansısa nümayəndəsi yalan bəyanatlar üzərindən manipulyasiya yaratmağa çalışırlar. Bu, yolverilməzdir. Prezident müsahibəsində deyib ki, Yaxın Şərqdə hansısa fəaliyyətlərdə mümkün iştiraka gəldikdə, ABŞ-ın BMT-dəki səfirliyinin Azərbaycanın razılıq verməsi ilə bağlı bəyanatı bizi təəccübləndirdi: "Biz razılıq verməmişik və diplomatik kanallarla Amerika administrasiyasına çatdırdıq ki, bu cür yalan bəyanatlar qəbuledilməzdir, onlar yanlış mənzərə yaradır. Ola bilər ki, belə bir cəhd olub, kimi isə bu prosesə cəlb etmək üçün Azərbaycanın razılıq verdiyini deyiblər. İstisna etmirəm ki, əgər belə olubsa, bu, ümumiyyətlə heç bir vəchlə qəbul edilə bilməz. Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur".

Beləliklə, Qəzza və ümumilikdə Yaxın Şərq məsələsində Bakının mövqeyi özünün tutduğu strateji xəttin davamıdır: qeyri-müəyyən mandatlı hərbi macəralardan uzaq durmaq, humanitar yardımı və diplomatik səyləri ön plana çəkmək. Bütün bunlar göstərir ki, Azərbaycan qlobal sülh gündəliyində sözlə deyil, ölçülmüş və məsuliyyətli siyasəti ilə iştirak edir.

***P.İSMAYILOV***

# Azərbaycan-Çin əlaqələri 2025-ci ildə tarixi yüksək səviyyəyə qalxıb

2025-ci il Azərbaycan-Çin münasibətləri üçün önəmli, hətta tam əminliklə deyə bilərik ki, tarixi bir il oldu. Həm siyasi, həm iqtisadi, həm humanitar sahədə aktivlik müşahidə olundu. Dövlət başçılarının görüşləri, telefon danışıqları, məktub mübadilələri əsasında formalaşmış sıx dialoq, qarşılıqlı hörmət və etimad Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayıb.




Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Çin ilə münasibətlərin səviyyəsinin yüksəldilməsini Azərbaycanın xarici siyasəti üçün 2025-ci ildə uğur gətirən ən mühüm hadisələrdən biri kimi dəyərləndirib. "Mən hesab edirdim ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər".

Azərbaycan Prezidentinin Çinə ötən ilin aprelindəki dövlət səfəri zamanı hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat başda olmaqla əməkdaşlığa dair 20 sənəd imzalanıb. Həmin sənədlər iqtisadi-ticari, enerji, o cümlədən yaşıl enerji, nəqliyyat, elm və təhsil, mədəniyyət, media və digər sahələri əhatə edir. Sözügedən sənədlər və ümumilikdə tərəflərin münasibətləri daha da irəli aparmaq istiqamətindəki fəaliyyəti sayəsində iqtisadi-ticari əməkdaşlıq genişlənib. İki ölkə arasında əmtəə dövriyyəsi rekord həddə çataraq, 4 milyard dolları ötüb. Çin şirkətləri Azərbaycana, xüsusən də yaşıl enerji sahəsində fəal şəkildə investisiya qoymağa başlayıb.

Azərbaycan əlverişli coğrafi mövqeyi, iqtisadi və logistika imkanları ilə regionda beynəlxalq tranzit yükdaşımaları üçün əvəzolunmaz ölkədir. Azərbaycan hələ illər öncədən beynəlxalq nəqliyyat marşrutlarının, o cümlədən Orta Dəhlizin tikintisinə ciddi sərmayələr yatırıb. Bura Ələt Ticarət Limanının inşası, Xəzər dənizində mülki donanmanın gücləndirilməsi, ölkə ərazisində və sərhədlərimizdən kənarda dəmir və avtomobil yollarının yenilənməsi və inkişafı, beynəlxalq hava limanlarının inşası daxildir. Azərbaycanın bağlantı imkanlarının davamlı olaraq yaxşılaşdırılması ölkənin uzunmüddətli iqtisadi strategiyasının əsas komponentləridir. Son illər Orta Dəhliz üzrə daşınan yüklərin, o cümlədən Çin yüklərinin həcmi əhəmiyyətli dərəcədə artıb. Bu da əbəs deyil, çünki Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar yaranan vəziyyət ənənəvi şimal xəttinin sabit və etibarlı fəaliyyətini pozub. Bu səbəbdən Azərbaycandan keçən Orta Dəhlizin əhəmiyyəti çoxalıb. Çin tərəfinin məlumatına görə, 2025-ci ilin yanvar-noyabr aylarında bu marşrut üzrə ümumilikdə 466 qatar reysi həyata keçirilib. Elə 2026-cı il başlayar-başlamaz, Çindən Orta Dəhliz vasitəsilə ilin ilk qatarı Azərbaycana doğru yola düşüb. "Çin Enerji İnşaat Korporasiyası"na məxsus fotovoltaik modullarla yüklənmiş 45 konteynerlik Çin-Avropa yük qatarı Sian şəhərindən yola çıxaraq, Horqos sər-



həd-buraxılış məntəqəsindən Qazaxıstana, oradan isə Xəzər dənizi vasitəsilə yekunda Bakıya çatacaq. Hazırda Trans-Xəzər beynəlxalq nəqliyyat dəhlizi üzrə qatarların hərəkəti daha da intensivləşib, daşınma müddəti isə 23 gündən təxminən 11 günədək qısalıb. Təkcə Çinin qərbindənki ən iri dəmir yolu terminalı olan Siandan deyil, paytaxt Pekin də daxil olmaqla Çinin bir neçə şəhərindən Orta Dəhliz vasitəsilə yük qatarı marşrutu fəaliyyət göstərir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta Dəhliz üzrə daşımaların həcmi 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner tutumu 865 minə yüksələcək. Bu, Azərbaycanın logistik əhəmiyyətini artırmaqla yanaşı , həm də qlobal ticarət üçün uzunmüddətli, davamlı bir yoldur.

Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Zəngəzur dəhlizi regional əməkdaşlıq üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizi layihəsini həyata keçirməklə Orta Dəhlizi daha da şaxələndirməyi hədəfləyir. Çin və Orta Asiya ölkələrindən gələn yüklərin gələcəkdə həm də Zəngəzur dəhlizi boyunca hərəkəti mümkün olacaq. Bu da öz növbəsində həm daşınan yüklərin həcmi üçün, həm rəqabətqabiliyyətlilik üçün, tranzit marşrutunun inhisarlaşdırılmasının qarşısını almaq və təbii ki, daha rəqabətli tariflər təmin etmək üçün alternativ təşkil edəcək. Təbii ki, Zəngəzur dəhlizinin Azərbaycan üçün iqtisadi faydası ilə yanaşı, siyasi dividendləri də olacaq.

***E.Cəfərli***

# Luizianadan Qrenlandiyaya - Vaşinqton yenidən "əilini cibinə salır"...

## ABŞ-ın Arktikada təmsilçilik iddiası ciddiləşir

Sirr deyil ki, son bir ildə Amerika Birləşmiş Ştatlarının (ABŞ) mühüm strateji prioritetləri arasında "Qrenlandiya məsələsi" ön plandadır. Vaşinqtonun adanı öz yuridiksiyasına qatmaq istiqamətindəki addımları isə ardıcıldır. Belə ki, ötən ilin sonunda Prezident Donald Tramp adanın hakimiyyəti ilə birbaşa əlaqələr qurmaq üçün Luiziana ştatınının respublikaçı qubernatoru Ceff Lendrini ABŞ-ın Qrenlandiya üzrə xüsusi elçisi təyin edib.

Ərazisi 2,166 milyon kvadrat kilometr olan Qrenlandiya dünyanın ən böyük adasıdır və adanın təxminən 80 faizi buzla örtülüdür. Əhalisi isə 50 min nəfərdən bir qədər çoxdur ki, onların da əksəriyyəti inuitlərdir (Eskimoslar).

### ABŞ yenidən "torpaq" alqı-satqısına baş vurur

Bu arada "The Times" qəzeti Qrenlandiyanın ABŞ-a qoşulması üçün müxtəlif yolların olduğu haqda məqalə dərc edib. Bildirilir ki, bu yolların arasında məcburiyyət, assosiasiya müqaviləsi və Qrenlandiyanın Danimarkanın bir hissəsi olaraq qalması şərtilə orada ABŞ-ın hərbi təmsilçiliyi yer alır. Qəzet yazır ki, Vaşinqton hakimiyyəti yerli əhali üçün adanın iqtisadiyyatına əhəmiyyətli investisiyalar qoya bilər - hətta Danimarkadan Qrenlandiyanın satın alınması da istisna deyil.



"The Wall Street Journal" qəzeti isə yazır ki, dövlət katibi Marko Rubio Konqresə Vaşinqtonun Qrenlandiyanı pulla satın almaq niyyətində olduğunu bildirib. Onun sözlərinə görə, Qrenlandiya ilə bağlı son açıqlamalar ABŞ-ın hərbi müdaxiləsini nəzərdə tutmur. Rubionun sözlərinə görə, onların məqsədi adanı almaqdır.

Qeyd edək ki, tarixdə belə presedentlər mövcuddur. Ərazisinə görə dünyanın ən böyük ölkələrindən biri olan ABŞ indiki torpaq sahələrinin təxminən 40 faizini pulla alıb. Başqa sözlə, ABŞ ərazini genişləndirmək üçün müharibə eləməkdən çox, pulla ödəməyi daha üstün tutub.

Belə ki, ABŞ 1803-cü ildə Fransadan 15 milyon ABŞ dolları qarşılığında indiki Luiziana ştatını satın alıb. Prezident Tomas Ceffersonun dövründə reallaşan bu alqı-satqı nəticəsində Birləşmiş Ştatlar öz torpaqlarını təxminən 2,14 milyon kvadratkilometr artıraraq ərazisini iki dəfə böyütdü və Missisipi çayı üzərində tam nəzarəti əldə etdi. 1819-cu ildə isə İspaniyadan hazırki Florida ştatı alındı. Adams-Onis Müqaviləsi ilə reallaşan bu alqı-satqı nəticəsində ABŞ ABŞ-ın İspaniyaya qarşı 5 milyonluq iddiasından geri çəkildi. Ərazinin rəsmi keçidi isə 1821-ci ildə baş tutdu. Bunun nəticəsində ABŞ özünün cənub sərhədlərini təhlükəsizləşdirdi, eləcə də, Atlantik-Meksika körfəzi xəttini möhkəmləndirdi.

1853-cü ildə Meksikadan 10 milyon dollar qarşılığında Qadsden alışı həyata keçirildi. Bu, indiki Arizona və Nyu-Meksikonun cənubunu əhatə edir - ABŞ bu addımı ilə dəmir yolu xətlərinin çəkilişi üçün strateji imkan qazandı, ABŞ -Meksika sərhədi indiki formasını aldı.

1867-ci ildə isə ABŞ Rusiyadan Alyaskanı satın aldı. 7,2 milyon dollar dəyərində əldə edilən torpaq sahəsi 1,52 milyon kvadratkilometr idi. Prezident Endryu Conson dövründə edilən bu alqı-satqı sonrakı dövrlərdə Vaşinqtona nəhəng neft, qaz, qızıl yataqları və təbii sərvətlər qazandırdı. ABŞ bu yolla Arktikada və Sakit okeanda mövqelərini gücləndirdi.

Nəhayət, 1917-ci ildə ABŞ Danimarkadan Virgin adalarını satın aldı. 25 milyon dollar (qızıl ekvivalentində) əldə olunan ərazilərə Karib dənizi hövzəsindəki Virgin adaları daxil idi. Bunun nəticəsində isə Birinci Dünya müharibəsi fonunda Almaniyanın bölgəyə nəzarətinin qarşısı alındı, ABŞ-ın Karib hövzəsində hərbi-strateji mövqeyi gücləndi. Beləliklə, son 200 ildə ABŞ pulla əldə etdiyi ərazilər hesabına Atlantikdən Sakit okeana qədər uzanan qitə dövləti oldu, enerji, nəqliyyat və hərbi baxımdan üstünlük qazandı, geosiyasi təsirini mərhələli şəkildə qlobal səviyyəyə çıxardı.



### Ya iyulda, ya da noyabrda...

"The Economist" yazmışdı ki, ABŞ administrasiyası Qrenlandiyaya razılaşma təklif etməyə hazırlaşır. Bu razılaşma Azad Birlik Sazişi (COFA) adlanır. Vaşinqtonun Sakit okeandakı kiçik dövlətlərlə oxşar müqavilələri var. Sənədə görə, bu dövlətlər ABŞ ordusuna öz ərazi sularına və hava məkanına eksklüziv giriş imkanı verir və digər ölkələrə oxşar hüquqları rədd edir. Bunun müqabilində ABŞ iqtisadi və maliyyə yardımı göstərir.

"The Times" qəzeti də azad assosiasiya müqaviləsi imkanlarını araşdırıb. ABŞ-ın artıq Mikroneziya, Marşal adaları və Palau kimi kiçik Sakit okean dövlətləri ilə oxşar müqavilələri var. Müqavilələr ABŞ-ın bu ölkələrə maliyyə yardımı göstərməsini və öz növbəsində daxili özünüidarəetməni qoruyarkən müdafiə məsələlərini Vaşinqtona həvalə etməsini nəzərdə tutur.

"Politico" qəzeti isə yazıb ki, ABŞ yaxın aylarda Qrenlandiya üzərində nəzarəti ələ keçirməyə cəhd edə bilər və bunu noyabr ayında keçiriləcək ara seçkilər və ya 4 iyulda ABŞ müstəqilliyinin 250 illiyi ilə üst-üstə düşməklə qeyd edə bilər.

### Kommersiya müqavilələri, hərbi mövcudluq...

Son seçim isə adada Amerika hərbi mövcudluğunu gücləndirərkən Qrenlandiyanı Danimarkanın bir hissəsi kimi saxlamaqdır. Bu, mineral kəşfiyyatı ilə məşğul olan Amerika şirkətləri ilə kommersiya müqavilələri, eləcə də ABŞ rəsmilərinin yerli hökumətə məsləhətçi təyin edilməsi ilə müşayiət oluna bilər. Məlumata görə, Amerika rəsmiləri Qrenlandiya hökuməti ilə birbaşa danışıqlar aparmağa çalışıblar, lakin indiyə qədər rədd cavabı alıblar.

Danimarkanın Baş naziri Mette Frederiksen hesab edir ki, Trampın Qrenlandiyaya nəzarəti ələ keçirmək istəyi ilə bağlı açıqlamaları ciddi qəbul edilməlidir. "Amma mən bunu da aydınlaşdırmaq istəyirəm: ABŞ başqa bir NATO ölkəsinə hərbi hücum etmək qərarına gələrsə, hər şey dayanacaq. NATO və buna görə də İkinci Dünya müharibəsinin sonundan bəri təmin edilən təhlükəsizlik də daxil olmaqla hər şey bitəcək", - deyə o, TV2-yə bildirib.

Qeyd edək ki, Qrenlandiya NATO üzvü deyil, lakin Danimarkanın ittifaqdakı üzvlüyü sayəsində Şimali Atlantika Müqaviləsinə daxildir.

***SADİQ***

# Vaşinqton Ukraynaya təhlükəsizlik zəmanətlərini dəstəkləyib

ABŞ ilk dəfə olaraq Ukraynanın müttəfiqlərinin geniş koalisiyasını dəstəkləyib. Liderlərin sözlərinə görə, münaqişə bitdikdən sonra Rusiyanın yeni hücumu baş verərsə, Kiyevi dəstəkləmək öhdəliyini də əhatə edən təhlükəsizlik zəmanətləri vəd edilib. "Reuters"in məlumatına görə, bu vəd əsasən Avropa ölkələrindən ibarət olan və Kiyev üçün zəmanətləri gücləndirməyi hədəfləyən "könüllülər koalisiyası"nın Parisdəki zirvə toplantısında verilib. Əvvəlki koalisiya görüşlərindən fərqli olaraq, bu sammitdə ABŞ səfirləri Stiv Uitkoff və Cared Kuşner, eləcə də bir gün əvvəl Avropa hərbi liderləri ilə təhlükəsizlik zəmanətlərinin təfərrüatlarını aydınlaşdıran ABŞ-ın Avropadakı general-leytenantı Aleksus Qrinkeviç də iştirak ediblər.

Fransa və Böyük Britaniya atəşkəs əldə olunduqdan sonra çoxmillətli qüvvələrin yerləşdirilməsi ilə bağlı niyyət bəyannaməsi imzalayıblar. Fransa Prezidenti Emmanuel Makron bildirib ki, bu çərçivədə minlərlə fransız hərbçisi Ukraynaya göndərilə bilər.

Böyük Britaniyanın Baş naziri Kir Starmer isə qeyd edib ki, bu sənəd britaniyalı, fransız və tərəfdaş qüvvələrin Ukrayna ərazisində fəaliyyətini, ölkənin hava və dəniz məkanının qorunmasını və Ukrayna ordusunun yenidən qurulmasını təmin edəcək hüquqi bazanın əsasını qoyur.

Stiv Uitkoff Donald Trampın təhlükəsizlik protokollarını qətiyyətlə dəstəklədiyini bildirib ki, təhlükəsizlik protokolları Ukraynaya qarşı hər hansı bir təcavüzün qarşısını almaq üçün nəzərdə tutulub və əgər hücumlar baş verərsə, onlar ölkəni qorumaq üçün nəzərdə tutulub. Onlar mümkün qədər güclüdürlər.

Kuşner isə bildirib ki, əgər ukraynalılar yekun razılığa gəlsələr, bu saziş bağlandıqdan sonra təhlükəsiz olacaqlar: "Şübhəsiz ki, etibarlı bir müdafiəyə sahib olacaqlar və indiki hadisələrin bir daha baş verməməsini təmin etmək üçün real mexanizmlər olacaq".




Ukrayna Prezidenti Volodimir Zelenski görüşdən sonra "Telegram"da paylaşım edərək bildirib ki, əldə edilən razılaşmalar Avropanın və bütün koalisiyaların real təhlükəsizlik üçün nə qədər ciddi şəkildə işləməyə hazır olduqlarının bir siqnalıdır.

Liderlər bəyanatda bildiriblər ki, bu öhdəliklərə hərbi imkanların, kəşfiyyatın və logistika dəstəyinin istifadəsi, diplomatik təşəbbüslər və əlavə sanksiyaların qəbul edilməsi daxil ola bilər.

Qeyd olunur ki, Rusiya hələlik bu cür təhlükəsizlik zəmanətləri ilə sülh razılaşmasına razı olub-olmayacağına dair açıq mövqe bildirməyib. Moskva daha əvvəl NATO üzvü olan ölkələrin Ukrayna ərazisində qoşun yerləşdirməsini qəti şəkildə rədd edib.

# Venesuela ABŞ-a 2 milyard dollar məbləğində neft ixrac edir



Karakas və Vaşinqton ABŞ-a 2 milyard dollar məbləğində Venesuela nefti ixrac etmək barədə razılığa gəliblər. Bu barədə ABŞ Prezidenti Donald Tramp çərşənbə axşamı məlumat verib. Bu əsas razılaşma Çinə tədarükü ABŞ-a yönləndirəcək və Venesuelaya neft hasilatının daha dərin azaldılmasının qarşısını almağa kömək edəcək. "Reuters" xəbər verir ki, razılaşma Venesuela hökumətinin Donald Trampın Amerika neft şirkətlərinə açılmaq tələbinə cavab verdiyinə və ya daha çox hərbi müdaxilə riski daşıdığına dair güclü bir əlamətdir. Tramp bildirib ki, müvəqqəti Prezident Delsi Rodrigezdən ABŞ və özəl şirkətlərə Venesuelanın neft sənayesinə tam giriş verməsini istəyir.

Venesuela ABŞ Prezidentinin dekabr ayının ortalarından bəri tətbiq etdiyi ixrac blokadası səbəbindən milyonlarla barel nefti tankerlərdə, habelə saxlama çənlərində saxlayır və boşalda bilmir. Blokada Vaşinqtonun Venesuela Prezidenti Nikolas Maduro hökumətinə artan təzyiqinin bir hissəsidir və ötən həftə sonu onun ABŞ qüvvələri tərəfindən tutulması ilə nəticələnib.

Razılaşmaya görə, Venesuela ABŞ-a 30-50 milyon barel "sanksiyalı neft" tədarük edəcək. "Bu neft bazar qiymətinə satılacaq və həmin pula Amerika Birləşmiş Ştatlarının Prezidenti kimi mən nəzarət edəcəyəm ki, onun Venesuela və ABŞ xalqlarının rifahı üçün istifadə olunmasını təmin edim", - deyə o əlavə edib. Trampın açıqlamasından sonra ABŞ-da neft qiymətləri 1,5 faizdən çox düşüb. Belə ki, sözügedən razılaşmanın Venesuelanın ABŞ-a neft ixracını artıracağı gözlənilir.

Hazırda bu neft axını tamamilə ABŞ-ın icazəsi ilə fəaliyyət göstərən Venesuelanın dövlətə məxsus neft və qaz şirkəti PDVSA-nın əsas birgə müəssisə tərəfdaşı olan "Chevron" tərəfindən idarə olunur.

***Nardar***

YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# Səhnəmizin Gülçöhrəsi hələ də yaşayır!

## Leyla Bədirbəylinin doğum günüdür

*Yeganə BAYRAMOVA*

Bu gün zamanın yaddaşında adı qalan, baxışı ilə talelər danışan, sənəti ilə xalqımızın estetik zövqünü formalaşdıran görkəmli aktrisa, Xalq artisti Leyla Bədirbəylinin doğum günüdür. Aktrisa 1920-ci il yanvarın 8-də dünyaya gəlib. O, səhnəyə və ekrana sadəcə obraz gətirmədi, qadın taleyini, Şərqin zərifliyini, daxili üsyanı və səssiz ləyaqəti gətirdi. Onun oynadığı qadınlar susqun deyildi, bəzən baxışları ilə hayqırır, bəzən sükutları ilə cəmiyyətə güzgü tuturdular. Leyla Bədirbəylinin sənətində pafos yox idi, həqiqət vardı. Hisslər şişirdilmirdi, yaşanırdı.

Kamera onu sevirdi, çünki o, kameraya oynamağı bacarmırdı, o, yaşayırdı. Hər kadrda sanki öz taleyindən bir parça qoyurdu. Buna görə də illər keçsə də, onun yaratdığı obrazlar köhnəlmir, solmur. Onlar bu gün də bizimlə danışır, bu gün də bizi düşündürür...

Leyla Bədirbəylinin sənətə gəlməyində anası Bikə xanımın böyük rolu olub. Əli Bayramov klubundakı qadınlar dərnəyinə gedən Bikə xanım böyük qızı Leylanı da özüylə bura aparırmış. Rəqsə böyük marağı olan gələcəyin məşhur aktrisasının istedadını üzə çıxardığı ilk sahə də məhz rəqs olur. Fərqli xarici görünüşə və rəqs bacarığına sahib olan Bədirbəyli Dövlət Filarmoniyasına dəvət edilir.

On altı yaşında rəqqas Fərəc Cavanşirovla ailə həyatı qurur. Bir il sonra onların oğlu doğulur. Gənc ana olan aktrisa işindən ayrılmır və səhnə fəaliyyətini davam etdirir. Leyla Bədirbəyli ilə Fərəc Cavanşirovun evliliyi cəmi 4 il çəkir.

İkinci həyat yoldaşı diş həkimi Kamil Aslanovla tanışlığının isə qəribə tarixçəsi olub. Kamil Aslanov ixtisasca diş həkimi olub, amma rəqs etməyi xoşlayır, gözəl



rəqs edirmiş. Əli Bayramov klubuna gedir, Leylanı orada görür və çox bəyənir. Bir gün Leyla anasını da götürüb diş həkimə aparmaq adı ilə Kamilin işlədiyi xəstəxanaya gətirir. Lakin bu gedişlərin sayı çoxaldıqca Leylanın anasının da hər dəfə bir dişi çəkilirmiş. Elçi gələndə isə artıq hər şey bəlli olur. Bikə xanım zarafata salıb deyir: "Bir-birinizi sevdiyinizi əvvəldən desəydiniz, mən də dişlərimi çəkdirməzdim".

1945-ci ildə Rza Təhmasib "Arşın mal alan" filmini çəkərkən Gülçöhrə rolu üçün gözəl xarici görünüşə malik qız axtarırmış. Üzeyir Hacıbəyovun tövsiyəsindən sonra Leyla Bədirbəyli bu rola təsdiqlənir. Hətta belə iddialar da səsləndirilir ki, gözəllik aşiqi olan Üzeyir bəy Leyla Bədirbəylini bu rola ona olan sonsuz sevgisinə görə tövsiyə edib. Bəzi sənət adamları isə ümumiyyətlə bu iki şəxs arasında sevgi münasibətlərinin olduğunu deyirlər. "Arşın mal alan" qısa vaxt ərzində dünya şöhrəti qazanır. Filmin yaradıcı qrupu, o cümlədən Leyla Bədirbəyli 1946-cı ildə "Stalin mükafatı"na layiq görürlər.

Sara Qədimova ilə Leyla xanım yaxın rəfiqə olublar. Aktrisanın hərbçi olan və müharibəyə gedən atası haqqında 1943-cü ildə itkin düşməsi xəbəri gəlir. 4 ildən sonra isə ata sağ-salamat geri qayıdır. Bir gün aktrisa Sara xanımgildə qonaq olarkən telefon zəng çalır. Sara xanıma deyirlər ki, Leylaya qəfil deməyin, atası qayıdıb. Sara xanım Leylaya təklif edir ki, onu anasıgilə qonaq aparsın. Leyla Bədirbəyli evlərinin qapısından içəri girəndə atasını sağ-salamat görür və ürəyi gedir.

Leyla Bədirbəyli çox savadlı və qabiliyyətli xanım olub. Paltarlarının bəzilərini özü tikər, üzərinə iplə toxunmuş bəzəkli güllərdən naxış salarmış. Çox dadlı şirniyyatlar, gözəl tortlar bişirməyi bacarırmış. Bunun üçün hətta xarici ölkələrdən tort bişirmək üçün xüsusi avadanlıqlar gətizdirir. Halvanı, şəkərburanı o qədər dadlı bişirərmiş ki, adamlar bunları onun özü-



nün hazırladığına inanmayıblar.

"Dəli Kür" filminin çəkilişləri zamanı Cahandar ağanın arvadı rolunu ifa edən Leyla Bədirbəyli Mələk rolunun ifaçısı aktrisa Zemfira Sadıqovaya rol gərəyi şillə vurmalı idi. Lakin, heç kimin gözləmədiyi halda Leyla xanımın şilləsi çox güclü olur. Zemfira xanım müsahibələrinin birində belə deyir: "Rəhmətlik Reyhan Müslümova da filmdə Cahandarın qızı roluna çəkilirdi. Onunla biz yaşıd idik. Bir gün ikimiz birlikdə yemək yeyəndə qulağımız eşidə-eşidə Leyla Bədirbəyli dedi ki, bunları hardan tapıb gətiriblər. Nə istedadları, nə də gözəllikləri var. Sonra da məlum səhnədə Leyla Bədirbəyli məni elə bərkdən şillələdi ki, yerimdə səntirlədim. Həmin an özümü itirsəm də, dərhal ələ ala bilmişdim. Çünki aparat işləyir, film isə çəkilirdi. Mən özümə aid olan sözümü deməliydim. Əgər o məni elə möhkəm vurmasaydı, həmin hissəni daha yaxşı və başqa cür ifa edərdim. Amma Allah rəhmət etsin. O, sonradan heç bir üzrxahlıq etmədi. Halbuki, edə bilərdi".

Leyla Bədirbəylinin məşhurlaşmasında böyük rol oynamış digər şəxs isə İosif Stalin idi. Onun Bədirbəylini "Qafqaz gözəli", "Azərbaycan gözəli" adlandırmasından sonra aktrisanın gözəlliyi daha böyük marağa səbəb olmuşdu.

Aktrisa 1999-cu il noyabrın 23-də 79 yaşında vəfat edib, Fəxri xiyabanda dəfn olunub. Leyla Bədirbəylinin sənəti həm də cəsarət idi. O dövrdə qadın olmaq, səhnədə olmaq, ictimai baxışların mərkəzində dayanmaq özü də bir meydan oxumaq idi. O isə bu meydan oxumanı zərifliklə, ləyaqətlə etdi. Səsi ucalmadan, amma mövqeyi aydın olan bir sənətkar kimi.

Bu gün onun doğum gününü qeyd edərkən təkcə bir aktrisanı xatırlamırıq, bir məktəbi, bir estetik anlayışı, Azərbaycan qadınının sənətdəki bütöv obrazını yad edirik. Leyla Bədirbəyli yaddaşımızda yubiley tarixləri ilə yox, ruhumuzda açdığı izlə yaşayır. Zaman dəyişir, səhnələr dəyişir, tamaşaçı dəyişir. Amma həqiqi sənət dəyişmir. Leyla Bədirbəylinin sənəti kimi...

# Qrip dalğası genişlənir

**Səhiyyə Nazirliyi əhalini diqqətli olmağa çağırır!**

Son günlər ölkə üzrə qrip və kəskin respirator virus infeksiyalarının (KRVİ) yayılmasında nəzərəçarpacaq artım müşahidə olunur. Mövsüm dəyişkənliyi, havaların soyuq olması və qapalı məkanlarda insanların daha sıx toplaşması bu prosesə öz təsirini göstərir. Məhz bu səbəbdən Səhiyyə Nazirliyi və aidiyyəti qurumlar əhaliyə mütəmadi xəbərdarlıqlar edir, profilaktik tədbirlərə ciddi yanaşmağın vacibliyini önə çəkir. Mütəxəssislərin fikrincə, qrip adi soyuqdəymə kimi qiymətləndirilsə də, xüsusilə uşaqlar, yaşlılar və xroniki xəstəliyi olan şəxslər üçün ağır fəsadlara yol açır. Yüksək hərarət, halsızlıq, öskürək, boğaz ağrısı və əzələ sızıltıları ilə müşayiət olunan bu xəstəlik, vaxtında müalicə olunmadıqda pnevmoniya və digər ağırlaşmalarla nəticələnə bilər.

**Dekabr-fevral ayları qripin pik dövrüdür**

Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, infeksionist Təyyar Eyvazov son günlər kəskin respirator infeksiyaların artması ilə bağlı açıqlama verib. Onun sözlərinə görə, qrip və kəskin respirator virus infeksiyaları üçün epidemioloji fəsillilik xarakterikdir. İnfeksionist qeyd edib ki, hər il payız və qış aylarında qrip də daxil olmaqla bu tip infeksiyalara yoluxma hallarında təbii artım müşahidə olunur: "Dekabr-fevral ayları qripin pik dövrü hesb olunur. Bu infeksiyaların yayılmasını nisbətən azaltmaq məqsədilə artıq sentyabr ayından başlayaraq zəruri profilaktik tədbirlər görülür. Bu tədbirlər iki əsas istiqamətdə aparılır: spesifik və qeyri-spesifik tədbirlər. Qrip infeksiyası digər respirator viruslarla müqayisədə bəzi hallarda, xüsusən risk qruplarına daxil olan şəxslərdə daha ağır gedişə və fəsadlara səbəb ola bilər. Məhz buna görə qripə qarşı peyvəndləmə işlərinə onun geniş yayılması başlamazdan əvvəl start verilir. Səhiyyə Nazirliyinin dəstəyi ilə ölkəyə gətirilmiş Avropa istehsalı olan yüksək effektiv və təhlükəsiz qrip peyvəndləri ambulator-poliklinik yardım göstərən tibb müəssisələrində əhaliyə ödənişsiz, müraciət əsasında tətbiq olunur. Paralel olaraq, əhalinin, ilk növbədə risk qruplarının peyvəndləmə prosesində könüllü və aktiv iştirakını təmin etmək məqsədilə bütün vasitələrdən, o cümlədən mediadan istifadə olunmaqla geniş maarifləndirmə işləri aparılır".

**Qripə qarşı peyvəndləmənin əsas məqsədi...**

Mütəxəssis əlavə edib ki, peyvənd olunmuş şəxs yoluxduğu halda xəstəlik əksər hallarda əlamətsiz və ya yüngül formada keçir, xüsusilə həssas qruplarda infeksiyanın gedişi daha mülayim olur və fəsadlara daha az rast gəlinir: "Qripə qarşı peyvəndləmənin əsas məqsədi və hədəfi məhz risk qrupuna daxil olan şəxslərin qorunmasıdır ki, onların yoluxaraq xəstələnməsi səhiyyə sisteminə əlavə yük yaratmasın. Bu yanaşma beynəlxalq təcrübəyə əsaslanır və iqtisadi inkişaf etmiş ölkələrdə olduğu kimi, Azərbaycanda da tətbiq edilir.

Qrip vaksini vurulduqdan sonra virusa qarşı immunitetin formalaşması üçün azı 2 həftə vaxt tələb olunur. Buna görə də peyvəndləmə üçün əsasən sentyabr-oktyabr ayları daha münasib hesab edilir. Bununla yanaşı, bütün epidemioloji mövsüm ərzində vaksinasiyanın aparılması məqsədəuyğundur və hazırda bu proses ölkə üzrə davam etdirilir.

Digər istiqamət qeyri-spesifik tədbirlərdir ki, bu tədbirlər



havadamcı yolu ilə yayılan bütün infeksiyalar üçün universaldır. Bunlara respirator və əl gigiyenası qaydalarına riayət olunması daxildir. Əhali bu barədə mütəmadi şəkildə maarifləndirilir. Yaxın təmaslardan çəkinmək, zərurət olduqda maskadan istifadə etmək, qapalı məkanları tez-tez havalandırmaq, xəstə şəxslərin vaxtında aşkarlanaraq izolyasiya edilməsi, asqırdıqda və öskürdükdə burnu salfet və ya dirsəklə örtmək, çirkli əllərlə ağız və gözlərə toxunmamaq, xüsusilə qida qəbulundan əvvəl əlləri ən azı 20 saniyə sabunla yumaq bu tədbirlər sırasındadır".

**Əhalinin məsuliyyəti həlledici rol oynayır**

T.Eyvazovun sözlərinə görə, bu sadə qaydalar yalnız o zaman effektiv nəticə verir ki, əhali tərəfindən kütləvi şəkildə icra olunsun: "Aparılan maarifləndirmə işlərinin əsas məqsədi ilk baxışdan bəsit görünən, lakin effektivliyi sübut olunmuş bu qaydalara hər bir vətəndaşın ciddi yanaşmasını təmin etməkdir. Bu məsələdə əhalinin məsuliyyəti və tövsiyələrə əməl etməsi həlledici rol oynayır.

Qeyd olunan tədbirlərə riayət etməklə qrip və digər kəskin respirator virus infeksiyalarının qarşısını almaq mümkündür və hazırda ölkədə epidemioloji vəziyyət nəzarət altındadır".

**Necə qorunaq?**

Mövzu barədə "Yeni Azərbaycan"a açıqlama verən infeksionist - həkim Mərdan Əliyevin sözlərinə görə, qrip deyəndə bütün kəskin respirator virus infeksiyalarını nəzərdə tuturuq. Amma bu, belə deyil: "Bu infeksiyaları törədən 200-ə qədər virus var. Qrip virusu bunların içində ən ağır keçənidir. Qrip virusunda digərlərindən fərqli olaraq burun axıntısı olmur, yəni daha az müşahidə edilir. Ən çox qızdırma, halsızlıq, burun tutulması, boğaz ağrısı müşahidə edilir. Qrip virusu daha yaşlı şəxslərdə ölümə səbəb ola bilər. Pnevmoniya qripin ən ağırlaşmış formasıdır. Çox təəssüf ki, pnevmoniyalarda da ölüm halları müşahidə edilir".

Həkim qeyd edib ki, qrip virusu ilə kəskin respirator virus qarışdırmamalıdır. Qrip onların içində ən ağırıdır: "Digərlərində asqırıq, boğaz ağrısı olur. Hətta burun qıcıqlanması, qızdırma da nadir hallarda 1-2 gün müşahidə edilə bilir. Hamilələr bütün xəstəlikləri ağır keçirməyə meyilli olduqları üçün xüsusilə qrip virusundan özlərini qorumalıdırlar. Çünki hamilələrdə müəyyən hormonların ifraz olunması ilə əlaqəli olaraq onlarda immun sistemində zəifləmə müşahidə edilir. Beləliklə də, onlar qrip xəstəliyini ağır keçirə bilərlər. Hər kəs bilməlidir ki, qrip xəstəliyi ciddidir və ağırlaşmalar müşahidə edilə bilər. Buna görə də mütləq şəkildə bol maye qəbul edilməli və özlərini soyuğa verməməlidirlər. Belə olan halda xəstəliyin ağırlaşma ehtimalı da az olur".

İnfeksionist insanların virusdan qorunması üçün tövsiyələrini də qeyd edib: "Bu xəstəlikdən özümüzü qorumaq üçün əsas geyimimizə, yuxu rejimimizə və qidalanmağımıza fikir verməliyik. Çünki qidalanma və yuxu rejimi birbaşa immunitetlə əlaqəlidir. Evin havasını gün ərzində iki dəfə, səhər və axşam dəyişmək lazımdır. Bunlara riayət etsək, virusa yoluxsaq belə, xəstəliyi yüngül keçirmək olur".

*Yeganə*



## "Azəryol" belaruslu baş məşqçi ilə yeni müqavilə imzalayıb



Qadın həndbolçulardan ibarət "Azəryol" komandasının baş məşqçisi vəzifəsinə Sergey Kambur təyin edilib. "Apasport.az" xəbər verir ki, belaruslu mütəxəssislə 1,5 illik müqavilə imzalanıb. Komanda üzvlərinə təqdim olunan baş məşqçi dünən toplantı keçirib. Müzakirələrdən sonra "Qarabağ" klubunun baş məşqçisi Gülnarə Nağıbəyova isə birinci köməkçi məşqçi vəzifəsinə gətirilib.

## "Tottenhem" 46 milyon avro xərcləməyə hazırdır



"Tottenhem" Məhəmməd Kudusun zədələnməsindən sonra hücum xəttini gücləndirmək üçün yeni forvard axtarışındadır. Apasport.az xəbər verir ki, "Vulverhempton"un hücumçusu Yorgen Larsen karyerasını "Tottenhem"də davam etdirə bilər. Mümkün transferin dəyəri təxminən 46 milyon avro təşkil edə bilər.25 yaşlı hücumçuya "Tottenhem"dən başqa, "Nyukasl", "Kristal Pelas" və "Nottingem Forest" klubları da maraq göstərir. Cari mövsümdə İngiltərə Premyer Liqasında 18 oyuna çıxan norveçli forvard 1 qol vurub. "Tottenhem" Premyer Liqada 20 turdan sonra topladığı 27 xalla turnir cədvəlinin 13-cü pilləsində qərarlaşıb.

## Fransa millisinin futbolçusu "Fənərbağça"da



Türkiyənin "Fənərbağça" klubu qış transfer pəncərəsində növbəti futbolçunu heyətinə qatıb. İstanbul təmsilçisi Metteo Genduzinin keçidi üçün "Latsio" ilə anlaşıb. Razılığa əsasən, Türkiyə nəhəngi İtaliya klubuna 28 milyon avro təzminat ödəyəcək. Fransa millisinin üzvü olan yarımmüdafiəçinin yaxın günlərdə İstanbula gələrək rəsmi müqaviləyə imza atacağı gözlənilir. Qeyd edək ki, Matteo Genduzi karyerası ərzində ölkəsinin PSJ, "Loryan" və "Marsel" klublarında, eləcə də İngiltərənin "Arsenal" və Almaniyanın "Herta" komandalarında çıxış edib. Futbolçu Fransa yığmasında 14 oyun keçirib və 2 qol vurub.

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 4143**
**Sifariş: 10**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova